# İllik Hesabat 2009

## Bu il Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı üçün əlamətdardır

Azərbaycan Qızıl Aypara Cəmiyyəti hər il olduğu kimi bu il də respublikada humanitar sahənin inkişafına, Beynəlxalq Humanitar Hüququn insanlar arasında aşılanmasına, könüllülük siyasətinin daha da genişlənməsinə xüsusi diqqət yetirmişdir. Beynəlxalq Hərəkatı respublikada təmsil edən yeganə Milli Cəmiyyət kimi əsas məramımız, Hərəkatın fundamental prinsipləri çərçivəsində əhalinin aztəminatlı təbəqəsinə, münaqişə, təbii və texnogen fəlakətlər zamanı zərərçəkmişlərə, məcburi köçkünlərə, bir sözlə insanların qayğıya həssas təbəqəsinə təmənnasız tibbi-sosial, humanitar yardım və digər zəruri xidmətlərin göstərilməsindən ibarətdir.

Azərbaycan Qızıl Aypara Cəmiyyəti respublikada müxtəlif sosial-tibbi, humanitar və digər layihələri uğurla həyata keçirir. Müxtəlif mövzularda apardığı maarifləndirmə işləri əhalinin sağlamlığının, fəlakətlər zamanı davranış qaydalarının, ilk yardım və digər vərdişlərin mənimsənilməsində əhəmiyyətli rol oynayıb. İcma iştiraklı inkişaf metodunun yerlərdə tətbiqi üzrə həyata keçirilən proqramlar bu il də davam etdirilmişdir. Bu sahədə insan resurslarının maksimum səfərbər edilməsi, qarşıya çıxan problemlərin həllinə birgə çalışmaları, yerli icra hakimiyyəti orqanları ilə qarşılıqlı işgüzar münasibətlərin qurulması regionlarda humanitar sahənin inkişafının əsasını təşkil edir.

Könüllələr Beynəlxalq Hərəkatda çox mühüm yer tutur, Cəmiyyətimiz də öz növbəsində bu sahəyə xüsusi yer ayırmış və konkret olaraq müvafiq addımlar atmışdır. Gənclər və könüllülər Cəmiyyətimizin fəaliyyətinə cəlb olunaraq kütləvi tədbirlərin keçirilməsində yaxından iştirak edirlər. Qeyd etmək lazımdır ki, könüllülər heç bir maddi maraq güdmədən öz fəaliyyətlərini həyata keçirir, hətta bəzi hallarda həyatlarını təhlükə qarşısında da qoyurlar. Bu onların mərhəmət və xeyirxahlıq hisslərindən irəli gəlir.

Sevindirici haldır ki, 2009-cu ildə də Cəmiyyətimizin 2 şəfqət bacısı-Gültəkin Qafarova-Əsgərzadə (ölümündən sonra) və Umleyla Aslanova Beynəlxalq Hərəkatın yüksək mükafatı olan «Florens Naytingel» medalına layiq görülmüşlər. Bu da Cəmiyyətimizin beynəlxalq aləmdəki uğurlarındandır.

2009-cu ildə Beynəlxalq Hərəkat çox əlamətdar tarixi hadisələr yaşayıb. Bu il Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının yaranmasının 150 illiyi, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının 90 illiyi və Cenevrə Konvensiyalarının 60 illiyidir. Bu münasibətlə bir çox milli cəmiyyət tədbirləri «Bizim dünya, sizin addımlarınız» şüarı ilə həyata keçirmişlər. Azərbaycan Qızıl Aypara Cəmiyyəti də öz növbəsində layihələrini, əsasən HİV/AİDS qarşı mübarizə sahəsində keçirilən treninq və seminarları bu şüarla həyata keçirmişdir.

Qlobal problemlərdən olan «Quş qripi» və H1N1 «Donuz qripi» əsrimizin bəlasına çevrilmişdir. Bu istiqamətdə Azərbaycanda müvafiq strukturlar tərəfindən profilaktik işlər həyata keçirilmiş və bu virusların respublikaya yayılmasının qarşısı alınmışdır. Cəmiyyətimiz də bu istiqamətdə əhali arasında lazımi maarifləndirmə işləri aparmışdır.

Son zamanlar dünyada baş vermiş təbii fəlakətlər Azərbaycandan da yan keçməmişdir. Respublikanın bir çox bölgələri su daşqınlarına məruz qalmış və çoxsaylı insan bu fəlakətin qurbanına çevrilmişdir. Cəmiyyətimiz belə hadisələrdə öz potensialından istifadə edərək yerlərdə əhaliyə zəruri və ilk yardımlar göstərmiş və dövlətin həyata keçirdiyi tədbirlərdə yaxından iştirak etmişdir. Bu proseslərdə donorlarımızın, xüsusilə Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının dəstəyini xüsusi vurğulamaq istərdim.

Bütün bunlarla yanaşı Cəmiyyətimizin qarşısında daha məsuliyyətli və deyərdim ki, sevindirici bir hadisə də yer almışdır. Bu hadisə 2010-cu il mart ayının 10-da Azərbaycan Qızıl Aypara Cəmiyyətinin yaranmasının 90 illik yubileyidir. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin yaranmasının 90 illik yubileyi ilə əlaqədar bir sıra silsilə tədbirin keçirilməsinə artıq bu ildən start verilmişdir. Ümumiyyətlə, bu tarix dövlət başçısının 7 aprel 2008-ci il tarixli sərəncamı ilə hər il respublikada «Qızıl Aypara Cünü» kimi tərəfimizdən qeyd olunur.

Yubiley münasibətilə geniş tədbirlər planı hazırlanıb və mərhələlərlə bu tədbirlər «90 il mərhəmət keşiyində» şüarı ilə həyata keçirilməyə başlanılmışdır. Yubiley münasibətilə Cəmiyyətin prezidenti kimi mənim müəllifliyim ilə «Azərbaycan Qızıl Aypara Cəmiyyəti-zamanın axarında» adlı kitab işıq üzü görmüşdür. Kitabda Azərbaycan Qızıl Aypara Cəmiyyətinin 90 illik tarixi və fəaliyyəti geniş şəkildə şərh olunmuşdur. Cəmiyyətin yerli bölmələri bu istiqamətdə müvafiq təlimatlar almış və yerlərdə müxtəlif tədbirlərin həyata keçirilməsi planı hazırlanaraq Katibliyə təqdim edilmişdir. Bu əlamətdar gün respublikanın bütün bölgələrində qeyd olunacaqdır.

Ümumiyyətlə, son illərdə Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəxri üzvü cənab İlham Əliyevin qayğısı sayəsində Cəmiyyətimiz dinamik olaraq inkişaf etməkdədir. Dövlət başçısının imzaladığı müvafiq fərman və sərəncamlar bunu deməyə əsas verir. Hökumət strukturları Cəmiyyətimizin fəaliyyəti üçün münasib şərait yaratmışlar. Bütün bunlarla bərabər milli cəmiyyətimiz xarici tərəfdaşları ilə də işgüzar münasibətlərini daha da genişləndirir. Bu il bir çox milli cəmiyyətlə qarşılıqlı görüşlər keçirilmiş, təcrübə mübadiləsi aparılmış və birgə layihələr işlənib hazırlanmışdır. Azərbaycan Qızıl Aypara Cəmiyyəti öz tərəfdaşlarından - Norveç Qızıl Xaçı, Türkiyə Qızıl Ayı, İran İslam Respublikasının Qızıl Aypara Cəmiyyəti, Polşa Qızıl Xaçı, Hollandiya Qızıl Xaçı, Səudiyyə Ərəbistanının Qızıl Ayparası, Birləşmiş Ərəb Əmirliklərinin Qızıl Aypara Cəmiyyəti, Kuveyt Qızıl Ayparası, Qətər Qızıl Ayparası, Almaniya Qızıl Xaçı, İsrailin Magen David Cəmiyyəti, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası və Beynəlxalq Qızıl Xaç Komitəsi ilə yaxından əməkdaşlıq edir.

Əsas prioritetlərimizdən biri də gəlirgətirmə sahəsidir. Bu sahədə nailiyyətlərimiz var və bundan sonra da bu istiqamətdə fəaliyyətimizi daha da genişləndirəcəyik. Çünki, Cəmiyyətin maddi vəziyyətinin yaxşı olması vaxtında ehtiyacı olan insanlara lazımi yardımların edilməsinə şərait yaradır. Bu da humanitar layihələrin həyata keçirilməsində əsas şərtlərdən biridir.

Bu il Cəmiyyətimizin XXIII Baş Məclisi keçirildi. Cəmiyyətin İcraçı Katibinin cari il üçün fəaliyyətlər barədə geniş məruzəsi dinlənildi, növbəti 5 il müddətinə İdarəetmə Şurasının və Rəyasət Heyətinin, həmçinin Arbitraj və

Maliyyə Komissiyalarının yeni üzvləri seçildi. Məclisdə hökumət strukturları, qeyri-hökumət təşkilatları və tərəfdaşlarımızın nümayəndələri də iştirak etmişlər.

Mən, bütövlikdə 2009-cu ili Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəaliyyətində uğurlu illərdən biri kimi qiymətləndirirəm. Əminəm ki, Azərbaycan Qızıl Aypara Cəmiyyəti sonrakı illərdə də öz nüfuzunu qoruyub saxlayacaq, qazandığı nailiyyətləri uğurla davam etdirəcək və insanların üzləşdiyi problemlərin həllinə öz töhfəsini verəcəkdir.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəaliyyətində verdikləri dəstəyə görə bütün əlaqədar qurumlara öz təşəkkürümü bildirirəm.

***Dr. Novruz Aslanov***

***Azərbaycan Qızıl Aypara***
***Cəmiyyətinin prezidenti,***
***Milli Məclisin deputatı***

## Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Missiyası

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin imkanlarını və insanlığın gücünü səfərbər edərək zavallı insanlara xidmət etmək.

## Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının Fundamental Prinsipləri

### HUMANİZM

Ayrı-seçkilik etmədən döyüş meydanlarında yaralılara yardım göstərmək zərurətindən yaranmış Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı istər beynəlmiləl, istərsə də milli səviyyədə hər hansı bir şəraitdə insan iztirablarının qarşısını almağa və onları yüngülləşdirməyə çalışır. Hərəkat insan həyatı və sağlamlığını qorumaqla yanaşı, insan şəxsiyyətinə hörmətlə yanaşmağı da himayə etmək məqsədi güdür. O, bütün xalqlar arasında qarşılıqlı anlaşma, dostluq, əməkdaşlıq və möhkəm sülh olması üçün çalışır.

### QƏRƏZSİZLİK

Hərəkat heç kəsə dini, irqi, milli xüsusiyyətlərinə sinfi mənsubiyyətinə, siyasi əqidəsi və sosial mövqeyinə görə fərq qoymur. O, adamların düşdükləri əzab-əziyyətin ölçüsünə görə yardım edir; ilk növbədə ən ağır bəlalara düçar olanların köməyinə tələsir.

### NEYTRALLIQ

Hamının ona olan inamını qoruyub saxlamaq məqsədilə, hərbi münaqişələrdə heç bir tərəfi müdafiə etməyərək, düşmənçiliyə qarışmır, siyasi, irqi, dini və ideoloji mübahisələrdə bitərəf mövqe nümayiş etdirir.

### MÜSTƏQİLLİK

Hərəkat müstəqildir. Öz insansevərlik fəaliyyətində mövcud hakimiyyətə yardımçı olub, ölkəsində hakim olan qanunlara tabe olmaqla Milli Cəmiyyətlər öz muxtariyyətlərini qoruyub saxlayırlar ki, bu da onlara Qızıl Xaç Hərəkatının prinsipləri ilə işləmək imkanı verir.

### KÖNÜLLÜ XİDMƏT

Hərəkat heç bir maraq güdməyən könüllü yardım müəssisəsidir.

### VAHİDLİK

Bir ölkədə yalnız bir Qızıl Xaç və ya Qızıl Aypara Cəmiyyəti ola bilər. Onun qapıları hamının üzünə açıq olmalı və öz insansevərlik fəaliyyətini ölkənin bütün ərazisində görməlidir.

### UNİVERSALLIQ

Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı ümumbəşəri, universal bir qurumdur ki, bu qurumda bütün Cəmiyyətlərin bərabər hüquqları vardır və onlar bir-birilərinə kömək etməyə borcludurlar.

## FÖVQALADƏ HALLARA HAZIRLIQ VƏ CAVABVERMƏ

**Məqsəd:**

Fövqəladə hallara hazırlıq, ona cavab vermək və onun təsirini azaltmaq ucun Azərbaycan Qızıl Aypara Cəmiyyətinin imkanlarını artırmaq

**Fəaliyyətlər**

- AzQAC-ın Fövqəladə Hallara Hazırlıq və Cavabvermə Şöbəsi Sumqayıt Regional Mərkəzinin Mobil Könüllü Dəstəsinin 16 üzvü üçün 1 simulyasiya tapşırığı həyata keçirmişdir.
- 112 işçi və Mobil Könüllü Dəstənin üzvləri üçün "Fövqəladə hallarda ehtiyacların qiymətləndirilməsi" üzrə 3 treninq keçirilmişdir
- VCA-ya əsaslanan bölmələr seçilmiş və "İcmaların maarifləndirilməsi" üzrə 3 regional mərkəzin 42 işçi və Mobil Könüllü Dəstəsinin üzvləri üçün 4 treninq keçirilmişdir.

**Təchizat üzrə**

- Aprel ayında könüllülərin cəlb edilməsi üçün RM-lərə 4 ədəd nərd taxtası, 17 ədəd şaşki stolüstü oyunu alınmışdır.
- Anbarın təchizatını gücləndirmək məqsədilə 33 ədəd əriştəkəsən, 68 ədəd diş fırçası, 100 ədəd ədyal, 17 ədəd mətbəxt ləvazimatı alınmışdır.
- Hacıqabul rayonunun Nəvahi qəsəbəsinin zərər çəkmiş sakinlərinə yardım göstərmək məqsədilə 600 rezin çəkmə, 300 səyyar qaz plitəsi,300 elektrik qızdırıcı, 300 plastik örtük, 600 kanistr, 1600 yataq dəsti, 600 döşək, 300 dəst gigiyenik dəsti və 600 bağlama ərzaq alınmışdır.

**Qarşılıqlı əməkdaşlıq üzrə**

- Proqram Koordinatoru Elşən Səlimzadə və FHHC şöbəsinin müdiri Valeh Məhərrəmov 15-24 fevral tarixlərində Makedoniyanın Struqa şəhərində " Regional Fəlakətlərə Cavabvermə (RDRT)" üzrə təlimdə iştirak edərək RDRT nin üzvü olmuşlar.
- Proqram Koordinatoru Elşən Səlimzadə 16-19 may tarixlərində Çernoqoriyanın Sutomor şəhərində Regional DM koordinatorlarının görüşündə iştirak etmişdir.
- Proqram Koordinatoru Elşən Səlimzadə, bir qrup əməkdaş və könüllü 25-30 may tarixlərində "Regional Əməkdaşlıq Proqramı (RCP)" çərçivəsində Gürcüstanda keçirilən "Psixoloji Yardım" üzrə treninqdə iştirak etmişlər.

**Müxtəlif Fəlakətlərdən zərər çəkmiş zavallı insanlara humanitar yardımlar üzrə**

- 2009-cu ildə AzQAC tərəfindən müxtəlif fəlakətlərdən zərər çəkmiş 414 nəfərdən ibarət ümumilikdə 120 ailəyə 18099,91 manat məbləğində humanitar yardım göstərilmişdir.
- 2009-cu ilin sentyabrında Hacıqabul rayonunda baş vermiş fəlakətlə əlaqədar Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının "Fövqəladə Hallara Cavabvermə Fondu (DREF)" tərəfindən ayrılmış maliyyə vəsaiti hesabına daha 1287 nəfərdən ibarət 300 ailəyə 72848,20 manat məbləğində humanitar yardım göstərilmişdir.

| **№** | **Regional Mərkəz** | **Ailə sayı** | **Neçə nəfər** | **Məbləğ** |
|---|---|---|---|---|
| 1 | Bakı Mərkəzi Anbar | 412 | 1650 | 90948,11 |
| 2 | Mingəçevir | 4 | 21 | 332,22 |
| 3 | Lənkəran | 2 | 19 | 184,12 |
| 4 | Sabirabad | 2 | 11 | 380,68 |
| | **Cəmi:** | **420** | **1701** | **91845,13** |

**Problemlər:**

- Fövqəladə hallara hazırlıq və cavabvermə üzrə milli planın olmaması;
- Hələ də xarici donorlardan asılılıq;
- Fəaliyyətlər üçün kifayət qədər maliyyə vəsaitinin olmaması;
- Telekommunikasiya üzrə mütəxəssisin olmaması;
- Nəqliyyat vasitəsinin olmaması

## SAĞLAMLIQ VƏ QAYĞI

**Məqsəd:**

Səhiyyə maarifi işi və səhiyyə xidmətləri vasitəsi ilə əhalinin sağlamlıq barəsində biliklərinin artırılması.

**Vəzifə 1.**

**İcmaya əsaslanan sağlamlıq və qayğı**

AzQAC-nin "İcmaya əsaslanan sağlamlıq" layihə çərçivəsində aparılan fəaliyyətlər "Quş qripi", "Vərəm" "HİV/AİDS", "Cinsi yolla keçən xəstəliklər", "İnfeksion xəstəlikləri", "Süd vəzisi xərçəngi", "Psixi sağlamlıq", "Sağlam həyat tərzi" "Narkomaniya, alkoqolizm" və s. kimi mövzular haqqında əhali arasında səhiyyə maarifi işinin təşkili və tibbi-sosial xidmətlərə yönəldilib. Bu

fəaliyyətlər sayəsində əhalinin xəstəliklər barəsində maarifləndirilməsi və sağlamlığın yaxşılaşdırılması Bakı, Sumqayıt, Lənkəran, Mingəçevir, Sabirabad, Gəncə, Qarabağ regional mərkəzlərində 83 nəfər təlimatlandırılmış könüllü sağlamlıq işçisi və tibb bacısı tərəfindən aparılır.

| **Mövzunun adı** | **Cəlb olunanların sayı** |
|---|---|
| Ailə planlaşdırılması, CİV/AİDS | 300 |
| Qidalanma | 188 |
| Şəxsi gigiyena və sanitariyya | 493 |
| İnfeksion xəstəliklər | 447 |
| Quş qripi | 448 |
| Ətraf mühit və sağlamlıq | 831 |
| Daxili xəstəliklər | 575 |
| **Ümumi** | **3275** |

İl ərzində Azərbaycan respublikası Səhiyyə Nazirliyi İçtimai Səhiyyə İslahatlar Mərkəzində "İcmaya əsaslanan sağlamlıq" proqramı çərçivəsində mütəmadi olaraq dövlət və qeyri dövlət təşkilatlar arası görüşlər keçirilmişdir. Belə görüşlər Azərbaycan əhalisinin sağlamlığı uğrunda respublikada fəaliyyət göstərən təşkilatların birləşməsinə və əməkdaşlığa zəmin yaradır.

"İcmaya əsaslanan sağlamlıq" layihəsi çərçivəsində AzQAC-ti respublikada sağlamlıqla bağlı bütün tədbirlərdə fəal iştirak edir. Belə ki, Bakıda 7 Aprel "Ümumdünya Sağlamlıq Günü" "Sağlamlıq həftəsi" kimi keçirilmişdir. Bununla əlaqədar AzQAC "SOS uşaq kəndləri-Azərbaycan" Assosiyasiyası ilə birgə bu günün Elitar Gimnaziyanın şagirdləri ilə birgə keçirmişlər. AzQAC-in könüllü sağlamlıq işçiləri tərəfindən vərəm haqqında yazılan nağılı həmin gimnaziyanın şagirdləri səhnələndirmişlər. Bu işdə onlara "SOS uşaq kəndləri-Azərbaycan" Assosiyasiyasının təlimatçıları kömək etmişdirlər. Elitar Gimnaziyada 7 aprel "Sağlamlıq günü"nə həsr edilmiş tədbirdə həmin səhnəcik nümayiş olunmuşdur. Tədbirdən sonra dəvət olan qonaqlar, gimnaziyanın müəllim-şagird heyəti məmun olunduqlarını bildirmişdirlər. Tamaşada iştirak edən "SOS uşaq kəndləri-Azərbaycan" Assosiyasiyasın könüllülərinə diplom və hədiyyə təqdim olunmuşdur.

May ayının 26 – dan 29 – dək Gürcüstanın Tibilisi şəhərində "Regional əməkdaşlıq Proqramı" çərçivəsində "Fövqəladə hallar zamanı Psixilojı Dəstək" adlı təlim təşkil olunmuşdur. Təlimdə Türkiyə, Şimali Kipr Qızıl Ayları, Azərbaycan, Qırğızıstan, Özbəkistan, Qazaxıstan, Tacikistan, Türkmənistan Qızıl Aypara və Gürcüstan Qızıl Xaç Cəmiyyətlərindən 28 nəfər nümayəndə heyəti iştirak etmişdir. Təlim fəlakətlərdə insanlara psixoloji və sosial yardımların təşkili və aparılması sayəsində təcrübəsi olan Türk Qızıl Ayının psixoloq və mütəxəsisləri tərəfindən təşkil olunmuşdur.

Beynəlxalq Qızıl Xac Hərəkatının "Florens Naytingeyl" Medalı hər iki ildən bir Hərəkatın ən fəal tibb bacılarına təqdim edilir. Bu il AzQAC-nin iki fəal tibb bacısı Aslanova Umleyla və Qafarova-Əsgərzadə Gültəkin Florens Naytingeyl

medalına layiq görülmüşlər. Medalın təqdimatı iyun ayının 12 – də Beynəlxalq Qızıl Xaç Komitəsinin ofisində keçirilmişdir.
1000 nəfər qadın arasında süd vəzi xərçəngi barədə aparılan sorğular nəticəsində onların 80%-i bu xəstəlik haqqında məlumatının olmamasını göstərmişdir. Azərbaycanın bölgələrində AzQAC tərəfindən aparılan səhiyyə maarifi işi və təbliğat kompaniyalarının təşkil olunması zəruriliyi nəzərə alaraq, ay ərzində AzQAC Sumqayıtda fəaliyyət göstərən "Ana və Uşaq" İçtimai Birliyi ilə birgə Bakı və Sumqayıt şəhərlərində qaçqın və məcburi köçkünlər məskünlaşan məhəllə və yataqxanalarında yaşayan qadınlar üçün "Süd vəzisinin xərçəngi" adlı təlimlər keçirilmişdir. 250 nəfər qadın bu problemin qarşısının alınması, özünü müayinə etmə üsulları barədə biliklər əldə etmişdirlər. 4 nəfər qadın isə süd vəzilərində dəyişiklikləri qeyd etmişdir ki, onlar Milli Onkologiya Mərkəzinə tibbi müayinəyə göndərilmişdir.
AzQAC-ın əməkdaşları Qaradağ rayonunun əhalisi arasında "H1N1 qripi haqqında maarifləndirmə işləri aparmış, informasiya materialları paylamışdırlar. Tədbirdə Qaradağ Rayon İcra başçısının müavini, Taun əleyhinə mərkəzin mütəxəssisi iştirak etmişdirlər.

AzQAC – ın prezidentinin şəxsi təşəbbüsü ilə Bakıda "Mərhəmət sorağında" adlı pilot layihəsi davam etməkdədir. Layihənin məqsədi Bakının 11 rayon bölməsinin əməkdaşları və fəaliyyət göstərən tibb bacılarının iştirakı ilə həmin ərazidə yaşayan və qeydiyyatda olan tənha kimsəsiz olan qocalara humanitar yardım və tibbi-sosial xidmətin göstərilməsidir. Bu insanlara tibbi sosial xidmətlərdən dərmanların qəbulu, təzyiqin ölçülməsi, iynələrin vurulması, gigiyenik tədbirlər və digər təmizlik işləri aparılır.

2009-cu il dekabr ayının 3-4-də, Budapeşt şəhərində 16 Milli Cəmiyyətin Sağlamlıq və qayğı sahəsində iş üzrə menecerlərin 3 Forumu keçirilmişdir. Forumda iştirak edən Ümumdünya Səhiyyə Təşkilatının eksperti prezentasiya edərək, bir daha Beynəlxalq Qızıl Xaç/Aypara Cəmiyyətləri Federasiyasının və Avropa Zonasının Milli Cəmiyyətlərinin sağlamlıq və qayğı üzrə məsul şəxslərə aparılan fəaliyyətləri insanların sosial durumlarının yaxşılaşdırılmasına yönəldilməsini, bu yolla onların sağlamlıqlarının qorunmasına nail olmasını vurğulamışdır. Əlavə olaraq, içtimai sağlamlıqla yanaşı sosial yönümlü fəaliyyətlərin aparılmasını Milli Cəmiyyətlərə tövsiyyə etmişdir. Eyni zamanda inkişaf etmiş Milli Cəmiyyətlərin səhiyyə sahəsində bilik və bacarıqlarını, texniki dəstək ilə təmin edilməsi kimi fəaliyyətlər şəbəkə çərçivəsində daha rahat və əlverişli olması forumda qeyd olunmuşdur.
BQX/QA Cəmiyyətləri Federasiyasının Strategiya-2020-də səhiyyəyə ayrılan yerdə onkoloji xəstəliklər, şəkərli diabet, psixoloji pozğunluqlar kimi vəziyyətlərin qarşısının alınmasında, sağlam həyat tərzinin təbliğatında Milli Cəmiyyətlər tərəfindən aparılan səhiyyə maarıfı işinin təşkilinin əhəmiyyətli olması bir daha vurğulanmışdır ki, gələcəkdə onlara bu işin gücləndirilməsi tövsiyyə olunmuşdur.

**Vəzifə 2. Azərbaycanda qan donorluğunun inkişafı**

AzQAC 2009 – cu ildə Norvec Qızıl Xaç Cəmiyyətinin dəstəyi ilə " Azərbaycanda könüllü, təmənnasız qan donorluğunun inkişafı" adlı proqramını davam etdirmişdir. Ümumdünya səhiyyə təşkilatı tərəfindən tövsiyyə olunan könüllü təmənnasız qanın təhlükəsiz olmasını nəzərə alaraq, respublikada mütəmadi könüllü təmənnasız qan donorlarının cəlb edilməsi layihənin ali məqsədidir. Layihə çərçivəsində 87 nəfər qan donorluğuna aid təlimatlandırılmış könüllü və Klub – 25 – in üzvləri tərəfindən "Sağlam həyat tərzi", "Sağlam mütəmadi könüllü qan donorluğu" sahəsində maarifləndirmə fəaliyyətini genişləndirməklə, təbliğat tədbirlərini həyata keçirir.

Mart ayının 4 və 5-i Səhiyyə Nazirliyi, Qadın, Uşaq və Ailə problemləri üzrə Dövlət komitəsi, Azərbaycan Hemofeliya Assosasiyası ilə birgə Bakı şəhərində yerləşən bir neçə poliklinikada 8 Mart "Qadınlar günü"nə həsr olunmuş qan vermə aksiyaları təşkil etmişdirlər. Keçirilən aksiyalarda polis idarələri və tədris ocaqlarının tələbələri də fəal iştirak etmişlər.

10 Mart "Azərbaycan Qızıl Aypara günü"nə həsr olunmuş könüllü qan vermə aksiyası mart ayının 7 – də Texniki Universitetdə təşkil olunmuşdur. Həmişəki kimi AzQAC-nin könüllü qan donorları olan AzQAC – ın prezidenti Novruz Aslanov və İsrailin Azərbaycandakı səfiri Artur Lenk tədbirə qoşulub, qan vermişlər. Onlar qan verməklə bir neçə insanın həyatını xilas etmiş olmuşlar. Bu iki tanınmış şəxs bu addımı atmaqla, bir daha könüllü qan donorlarının insan həyatını xilas etmək üçün vəzifənin, milli mənsubiyyətin, dinin və s. kimi məqamların əhəmiyyətli olmamasını bir örnək kimi nümayiş etdirmişlər.

Hər il olduğu kimi AzQAC-ti 14 iyun "Ümumidünya Qan Donoru Günü" nü qeyd edir və ölkədə bununla bağlı təşkil olunan tədbirlərdə fəal iştirak etmişdir. Belə tədbirlərdən biri 12 iyun 2009-ci il tarixdə AzQAC-in ofisində gənc könüllü qan donorlar ilə dəyirmi masa ətrafında görüş keçirilmiş, Bakının mərkəzində 14 iyun "Ümumidünya Qan Donoru Günü"-nə həsr olunmuş təbliğat kampaniyası keçirilmişdir.

İl ərzində "Klub – 25"- in üzvləri müxtəlif tədris ocaqlarında - Pedaqoji Universitet, 2 saylı tibb məktəbi və digər təşkilatlarda gənclər arasında əyani vəsaitlərin paylanması ilə könüllü təmənnasız mütəmadi qan donorlarını cəlb etmək məqsədi ilə geniş təbliğat tədbirləri keçirmişlər. Təbliğat fəaliyyətləri nəticəsində AzQAC Bakı Telefon Rabitə İstehsal Birliyi, Neft Akademiyası, Xəzər və Texniki Universitetləri və digər rayon və bölgələrdə olan təşkilatlarda qanvermə aksiyaları təşkil olunmuşdur. İl ərzində Qan Bankının verdiyi məlumata əsasən AzQAC – ın xətti ilə **3050 nəfər** könüllü olaraq qan vermişdir.

İyunun 17 – də "Ambassador" mehmanxanasında "14-İyun Ümumdünya Donor Günü" nə həsr olunmuş tədbir keçirilmişdir. Tədbirdə AzQAC – ın əməkdaşları, Beynəlxalq Qızıl Xaç Komitəsinin, Talassemiya, Hemofiliya və Qan Donorları Assosiasiyalar, Neft Akademiyası, Xəzər, Pedaqoji və Texniki Universitetləri, "Azərsun - Holdinq", və digər təşkilatların nümayəndələri iştirak etmişlər. Bu tədbirdə AzQAC tərəfindən il ərzində təşkil olunan qan vermə aksiyalarında fəal iştirak edən təşkilatlara suvenirlər və təşəkkürnamələr təqdim olunmuşdur.

İl ərzində **2253** nəfər könüllü təmənnasız qan donorluğu, Sağlam həyat tərzi mövzuları haqqında maarifləndirilmişdir.

**Vəzifə 3. Vərəm**

Azərbaycan Qızıl Aypara Cəmiyyəti Bakı və regionlarda vərəmin yayılmasının qarşısını almaq məqsədilə səhiyyə maarifi işini təşkil edir. Bu təbliğat tədbirlərinə əhali arasında orta və ali məktəblərdə vərəmə dair videofilmlərin nümayişi ilə seminarların keçirilməsi sorğuların aparılması, dəyirmi masaların təşkili kimi fəaliyyətlər daxildir.

2009 – cu ildə AzQAC – ın Beynəlxalq Qızıl Xaç Komitəsinin dəstəyi ilə azadlığa buraxılan vərəmli məhkumların vərəmə qarşı zavallılığını azaltmaq və eyni zamanda onların vərəm xəstəliyindən sağalmasına nail olmaq məqsədilə "Azadlığa buraxılan vərəmli məhkumların davamlı müalicəsinə nəzarət" adlı pilot layihəsini davam etdirmişdir. Proqram çərçivəsində Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən təlimatlandırılmış AzQAC – ın tibb bacıları Bakının Yasamal, Binəqədi, Əzizbəyov rayonlarında yaşayan azadlığa buraxılan məhkumlar vərəm xəstəliyinə qarşı davamlı DOTS müalicəsinə nəzarət olunmuşdur. Tibb bacıları yerli vərəm dispanserlərində qeydiyyata düşməyən xəstələrin tapılmasında yardımçı olub ayrılan dərmanları əldə edib xəstələrə çatdırıb, dərmanların qəbuluna nəzarət edib, xəstə və onun ailə üzvləri ilə səhiyyə maarifi işini təşkil edirdilər. Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən aparılan Milli Vərəm Proqramının, Ağ Ciyər xəstələri İnstitutunun mütəxəssisləri ilə birgə əməkdaşlıq sahəsində mütəmadi görüşlərdə tibb bacılarının fəaliyyətində meydana çıxan problemlər müzakirə olunub aradan qaldırılmasına dair addımlar müəyyən edilirdi. 2009 – cu il ərzində 20 nəfər xəstə əhatə olunmuşdur ki, onlardan 14 nəfər DOTS müəalicəsini bitirmişdir. Digər xəstələr isə müalicəni davam etdirirlər.

Hər il olduğu kimi AzQAC ölkədə aparılan 24 Mart – "Ümimidünya vərəmlə mübarizə Günü" – nə həsr edilmiş tədbirlərdə fəal iştirak edir. Bu il Bakıda Ümimdünya Səhiyyə Təşkilatının Azərbaycandakı Nümayəndəliyi tərəfindən dəyirmi masa təşkil olunmuşdur. Tədbirlə Ümumdünya Səhiyyə Təşkilatının Beynəlxalq Vərəm üzrə mütəxəssisi və ölkədə vərəmin müalicəsi profilaktikası və bu sayədə aparılan təşkilati məsələlərlə bağlı fəaliyyət göstərən hökumət və qeyri hökumət təşkilatlarının nümayəndələri iştirak etmişlər. Dəyirmi masanın məqsədi bir başa vərəmə aidiyyatı olan təşkilatların bu sahədə olan problemlərə diqqətini cəlb etmək və onların aradan qaldırılmasına dair fəaliyyətləri genişləndirmək, bununla belə Azərbaycanda vərəm xəstəliyinin qarşısının alınmasından ibarətdir.

Fevralın 23 də "HİV/AİDS, Vərəm və Malyariya ilə mübarizə Qlobal Fond"-u Azərbaycanda vərəm xəstəliyinə aid olan məsələlərlə bağlı dəyirəvi masa keçirmişdir. Həmin görüşdə Vərəmlə mübarizədə gələcək əməkdaşlıq srtategiyasının istiqaməti seçilmişdir.

İl ərzində Vərəmin yayılmasına qarşı səhiyyə maarifi tədbirləri (təlim, icmalarda görüşlər və s.) təşkil olunmuşdur. Belə tədbirlərdən biri "SOS – uşaq kəndləri Azərbaycan Assosiasiyasında" keçirilən Vərəmin profilaktikası" adlı təlimi qeyd etmək olar. AzQAC-in könüllü sağlamlıq işçiləri tərəfindən

Bakının bəzi rayonlarında məktəb və yataqxanalarda vərəmin yayılması və onunla mübarizə haqqında əhali ilə söhbətlər aparılmış, təbliğat vəsaitləri paylanılmışdır. Belə ki, il ərzində **845** nəfər insan vərəm haqqında maarifləndirilmişdir.

**Vəzifə 4. İcmaya əsaslanan İlk yardım**.

İl ərzində "İcmaya əsaslanan İlk yardım" proqramı çərçivəsində 32 nəfər ilk yardım üzrə təlimatlandırılmış könüllü (10 nəfər Bakı, 5 nəfər Füzuli, Ağdam, 10 nəfər Zaqatala və Ucardan yeni ilk yardım dəstəsinin üzvü, 7 nəfər isə RM-də ötən illərdə təlimatlandırılmış könüllülərdir). Bakı, Sabirabad, Mingəçevir, Lənkəran, Gəncə, Sumqayıt RM və Bakı, Ağdam, Füzuli, Zaqatala, Ucar RB-dən 1028 nəfər əhali arasında ilk yardım vərdişləri haqqında təbliğat işləri aparmışdırlar.
İl ərzində İlk Yardım dəstələri ilə mütəmadi görüşlər, praktiki məşğələlər keçirildi. "Ümumdünya Mülki Müdafiə Günü"nə həsr olunmuş 2009 – cu il fevral ayının 27 – si tarixində Fövqəladə Hallar Nazirliyi ilə birgə AzQAC tərəfindən keçirilən tədbirdə 60 saylı məktəbdə 130 şagird və müəllim heyəti üçün ilk yardım vərdişləri nümayış olunmuşdur.
Dənizkənarı Bulvar İdarəsinin "Kommunal Xidməti və Abadlaşdırma müəssisəsi " MMC – nin mühafizəçiləri və Bakı Dəniz Vağzalı işçiləri, BQXK –nın Bərdə ofisinin əməkdaşları üçün ilk yardım təlimi keçirilmişdir. Təlimdə cəmi 56 nəfər iştirak etmişdir. İştirakçılara avropa sertifikatları təqdim olunmuşdur.
AzQAC –da təcrübədə olan Slavyan və Qərb Universitetlərin tələbələri üçün ilk yardım təlimləri keçirilmişdir. Təlimlərdə 18 nəfər iştirak etmişdir. Qaradağ rayonunda 15 könüllüyə ilk yardım vərdişləri öyrədilmişdir. İzrailin Maqen David Adom Milli Təşkilatı AzQAC – ın əməkdaşları üçün ilk yardım təlimi keçirilmişdir. Təlimdən sonra iştirakçılara sertifikat verilmişdir və ilk yardım çantaları hədiyyə edilmişdir. Hər il olduğu kimi Beynəlxalq Qızıl Xaç/Qızıl Aypara Cəmiyyətləri Federasiyasının "Ümumdünya İlk yardım Günü" AzQAC - tərəfindən qeyd olunur.
"Ümumdünya ilk yardım günü"nə həsr edilmiş kampaniya Bakı, Sabirabad, Mingəçevir və digər RM- da keçirilmişdir. Belə ki, Bakıda AzQAC – ın Qızıl Aypara Cəmiyyətinin könüllü ilk yardım dəstələrinin üzvləri Uşaq cəza çəkmə müəssisəsində tədbir kecirmişdir. Həmin tədbir müsabiqə şəkilində 3 komanda - "Uşaqdan uşağa sülh şəbəkəsi", "SOS Uşaq Kəndləri Azərbaycan" və Uşaq cəza çəkmə müəssisəsi arasında keçirilmişdir. İlk yardım vərdişlərini nümayiş edərək işrirakçılar verilən sualları cavablandırmışlar.
Quba Rayon Bölməsində iki nəfər ilk yardım təlimçisi üçün təlim keçirilmişdir. Təlimçilərə Avropa Sertifikatları təqdim olunmuşdur.
Azərbaycan Dövlət Pedaqoji Universitetində **53** nəfərə ilk yardım təlimi keçirilmiş və ilk yardım vərdişləri nümayiş olunmuşdur.
"SOS Uşaq Kəndləri Azərbaycan" təşkilatının **6** əməkdaşına ilk yardım təlimi keçirilmişdir. Təlimdən sonra iştirakçılara ilk yardım sertifikatları verilmişdir.

**Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən aparılan "İnsan qripi pandemiyasına humanitar hazırlıq təşəbbüsü" layihəsi**

Mövsümi inflüensa (qrip) epidemiyası və bununla əlaqədar qrip hallarının və ölüm faizinin yüksək olması, xüsusilə də yüksək riskli qruplar arasında qrip halları və ölüm faizinin yüksək olması - bütün bunlar ictimai səhiyyənin böyük problemlərindən biridir. Dünya Səhiyyə Təşkilatı ilə fəal əməkdaşlıq edən milli ekspertlərin məqsədi inflüensa üzərində beynəlxalq nəzarəti yaxşılaşdırmaq və gücləndirmək, habelə ölkəni mümkün olan inflüensa pandemiyasına hazırlamaqdır. Odur ki, güclü ictimai səhiyyə sisteminin və işlənilib hazırlanmış pandemiyaya hazırlıq planının olması vacibdir. Bu cür plan artıq Azərbaycanda mövcuddur və o, Səhiyyə Nazirliyi tərəfindən aşağıdakı təşkilatlarla əməkdaşlıq şəraitində işlənilib hazırlanmışdır: Dünya Səhiyyə Təşkilatı, İctimai Səhiyyə İslahatları Mərkəzi, Dünya Bankının Asiya İnflüensa və İnsan Hazırlığı Layihəsi üzrə işləyən Kənd Təsərrüfatı Kreditlərinə dair Dövlət Agentliyi və Birləşmiş Millətlər Agentliyi.

Pandemiyaya qarşı mübarizə işində lazımı potensialı artırmaq və hazırlıq səviyyəsini yüksəltmək üçün Beynəlxalq İnkişaf üzrə ABŞ Agentliyi (USAİD) dəstəyi ilə Beynəlxalq Qızıl Xaç/Qızıl Aypara Cəmiyyətləri Federasiyası Azərbaycanda «İnsan qripi pandemiyaya qarşı humanitar hazırlıq» layihəsinin həyata keçirilməsi barədə Azərbaycan Qızıl Aypara Cəmiyyətinə müraciət etmişdir. Bu müraciətə əsasən Azərbaycan Qızıl Aypara Cəmiyyəti «İncan qripi pandemiyaya qarşı humanitar hazırlıq təşəbbüsü»adlı layihəsini hazırlayıb və 2009-cu il avqust ayından həyata keçirir. Layihə ilə bağlı Azərbaycanda həmin layihənin icra prosesini giymətləndirmək məqsədi ilə BQX/QA CF-nın beynəlxalq ekspertləri Bakiya səfər etmişdi.

Layihənin ali məqsədi respublikanın region və rayonlarında icmaların pandemiyaya qarşı hazırlıq (texniki və insan resursları baxımından) səviyyəsini yüksəltməklə Azərbaycan Hökumətinə insan qripi pandemiyasına hazır olmaqla dəstək vermək və icma yönümündə lazımı ölcülər götürməkdir. Bununla bağlı 2009-cu il avqust-dekabr ayları ərzində müəyyən olunmuş vəzifələrin bir hissəsi icra edilmişdir.

Belə ki, AzQAC-nin 6 Region Mərkəzlərinin (Bakı, Sumqayıt, Sabirabad, Gəncə, Mingəçevir və Lənkəran), 19 Rayon Bölməsində layihənin icrası başlamışdır. Layihəyə cəlb olunan region/rayonlarda yerli dövlət və GHT-lərin nümayəndəlinlərdən ibarət olan işçi qruplar yaradılmışdır. Hər rayonda 5 icma seçilmişdir ki, orada həmin icmanın pandemiyaya hazır olmasına dair planın hazırlanması prosesi həyata keçiriləcəkdir. Bununla yanaşı icma əhalisinin maarifləndirilməsi (sorğuların aparılması, vərəqələr və plakatların paylanması, təbliğat tədbirlərin təçkili) aparılan fəaliyyətlərin vacib hissəsidir. **7000** nəfər icma əhalisi arasında aparılan sorğular insanların pandemiyaya hazır olmamasını, onların bu sahədə biliklərinin və imkanlarının kifayyət qədər az olmasını göstərmişdir.

Layihə çərçivəsində AzQAC-nin Baş Qərargahının işçi heyəti (12 nəfər), Region Mərkəzlər/Rayon Bölmələrinin əməkdaşları (19 nəfər) və könüllüləri (112 nəfər) BQX/QAC Federasiyası tərəfindən göndərilən təlim materiallarını istifadə edərək, mütəmadi olaraq təlimatlandırılmışdır.

AzQAC-ti Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, ÜST-nın və USAİD-in Azərbaycandakı nümayəndəlikləri ilə layihə ilə bağlı əməkdaşlıq edərək mütəmadi görüşlər keçirilmişdir.

Əhali arasında paylanması nəzərdə tutulan müxtəlif növ vərəqələr və plakatlar hazırlanmışdır. Avqust-dekabr aylarında 7000 insan arasında sorğu keçirilmiş, H1N1 qripi haqqında maarifləndirilmişdir.

Layihə 2010-cu ilin iyul ayına qədər davam olunacaq və həyata keçirilən zaman seçilmiş test ərazilərində bazis analizi və kartoqrafiya (xəritə çəkmə) işinin aparılacağı, daxili və kənar şəbəkələnmənin işlənilib hazırlanması və hədəf dairəsinə götürülmüş ərazilərdə milli, rayon və icma səviyyəli tərəfdaşlar arasında funksional koordinasiyanın təmin edilməsi gözlənilir.

**Nailiyyətlər:**

- **83 nəfər** təlimatlandırılmış könüllü sağlamlıq işçisi və tibb bacısı əhali arasında quş qripi, HİV/AİDS, vərəm, süd vəzi xərçəngi, düzgün qidalanma, H1N1 qripi, infeksion xəstəliklər haqqında maarifləndirmə işlərinin fəaliyyətlərini davam edərək **10275 nəfər insan sağlamlığı ilə bağlı biliklərini artırmışdır. Onlardan 60**%-i qaçqın və məcburi köçkünlər təşkil edir.
- **12 nəfər** qadında süd vəzisində dəyişiklər müəyyən olunmüşdur
- **87 nəfər** qan donorluğuna dair təlimatlandırılmış könüllü və Klub-25-in üzvlləri tərəfindən **2253 nəfər insan qan donorluğu haqqında maarifləndirilmişdir.**
- **3050** nəfər könüllü təmənnasız qan donoru olmuşdur.
- **25 nəfərdən ibarət (Bakı - 10 nəfər, Ağdam, Füzuli - 5 nəfər, Zaqatala - 5 nəfər, Ucar - 5 nəfər) İlk Yardım dəstələri yaradılmışdır.**
- **932 nəfər İlk Yardım vərdişlərinə dair maarifləndirilmişdir.**
- **2 İlk Yardıma aid geniş kompaniya təşkil olunmuşdur.**
- **20 nəfər azadlığa buraxılan vərəmli məhkumdan 14 nəfər DOTS müalicəsini bitirmişdir, 6 nəfər isə müalicəsini davam etdirir.**

**Çətinliklər, Problemlər:**

Beynəlxalq Qızıl Xaç/Aypara Cəmiyyətləri Federatsiyası, donor cəmiyyətləri tərəfindən maaliyyə dəstəyinin mütəmadi olmaması və eyni zamanda bir müddət dayandırılması "İcmada sağlamlıq" proqramının həyata keçirilməsində bir çox çətinliklər və aşağıda göstərilən problemlərin meydana çıxmasına cəlb olunmuşdur. Beləki, sağlamlıq işçiləri və tibb bacıları üçün təlimlərin keçirilməsi, vərəmli xəstələrə psixoloq mütəxəssis tərəfindən məsləhətin verilməsi, əhali arasında sağlamlıqla bağlı maarifləndirmə tədbirlərin geniş şəkildə aparılması qanvermə aksiyaların təşkili, əyani vasitələrin çapı, könüllü sağlamlıq işçilərin həvəsləndirilməsi monitorinq aparılması və s. kimi problemlər proqram göstərişlərini (əvvəlki illərlə müqayisədə) aşağı olmasına təsir etmişdir.

## HİV və AİDS

**Məsqəd:**

Yaşa uyğun HİV/AİDS-lə bağlı bilikləri təmin etmək, gənclərə zəkalı qərar qəbul etməsində kömək, HİV/AİDS xəstəliyin qarşısını almaq üçün sağlamlıqla bağlı davranışları inkişaf etdirmək.

**Fəaliyyət:**

2009-cu il ərzində HİV və AİDS proqramı çərçivəsində 125 nəfər həmyaşıddan-həmyaşıda treynerlər hazırlanıb. Həmin treynerlər Gəncə, Sabirabad, Lənkəran və Mingəçevir Regional Mərkəzlərində çalışan fəal könüllülərdən ibarətdir. İl ərzində 35364 nəfər insan HİV və AİDS sahəsində maariflənmiş və infeksiyadan qorunma yolları haqda biliklərə yiyələnmişdir. Həmçinin il ərzində 60 nəfər treyner üçün biliklərinin yenilənməsi məqsədilə 2 treyning keçirilmişdir. Eyni zamanda 2009-cu il Qırğızıstanın paytaxtı Bişkek şəhərində HİV-AİDS və Vərəmə qarşı mübarizə Avropa Regional Şəbəkəsinin ənənəvi 13-cü görüşü həyata keçirilmişdir. Həmin görüşdə Milli Cəmiyyətimizdən 3 nümayəndə iştirak etmişdir.

Ümumiyyətlə keçirilən treyning və sessiyalarda HİV/AİDS xəstəliyinin tarixi və dünyada qlobal yayılması haqda statistik məlumaylar verilmiş, HİV və AİDS-in nə olması barədə terminlər və təriflərdən söhbət aparılmışdır. Daha sonra immun sistemi haqqında ümumi anlayış, HİV infeksiyasının əlamətləri, AİDS xəstəliyinin aşkar edilməsi, kimlər yoluxa bilər, ötürülmə yolları və ötürülmənin qarşısının alınması, HİV-in insan orqanizminə təsiri haqqında geniş məlumat verilmişdir. Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən lentə alınmış "Özünü qoru" videoklipi nümayiş etdirilmiş, daha sonra treyninq iştirakçıları qruplara bölünmüş, interaktiv oyunlar və

onların müzakirəsi başlanılmışdır. İştirakçılar bu xəstəliyə yoluxma və ondan qorunma yollarını öz rəsm əsərlərində nümayiş etdirmiş və hər bir rəsmin prezentasiyası keçirilmişdir. Həmçinin AİDS-lə mübarizə günü və qırmızı lent mövzusunda danışılmış, HİV test və HİV/AİDS zamanı ilk yardım mövzusunda müzakirələr keçirilmişdir. HİV/AİDS xəstəliyi ilə yaşayan insanlar və bu insanlara qarşı diskriminasiyanın azaldılması haqqında danışılmış, müxtəlif sorğular və oyunlar keçirilmişdir. Treyninqdə Azərbaycanda epidemiya ilə bağlı yaranmış vəziyyətdən, yoluxmuş insanların rəsmi və qeyri-rəsmi statistik məlumatlar barəsində, treynerlərdən asılı olan fəaliyyətlər sahəsində müzakirələr aparılmışdır.

**Kampaniyaların proqramı:**

Əvvəl 2 saatlıq HİV/AİDS haqqında informasiya xarakterli maarifləndirmə işləri aparılmışdır. Keçirilən kampaniyalara region kampaniyaları olmuşdur. Bütün Regional Mərkəzlərdə regiona daxil olan rayon bölmələrindən könüllülər iştirak etmişdir. Hər regionda kampaniyalar könüllülərin yürüş ilə başlamış, daha sonra isə əvvəlcədən təyin olunmuş ərazilərdə “Gənclər AİDS-in əleyhinədir” adlı bukletlərin və tibbi qoruyucu vasitələrin paylanılması ilə davam etdirilmişdir. Tədbirin davamında mövzuya aid rəsm müsabiqəsi və viktorinalar keçirilmişdir. Müsabiqədən sonra rəsm əsərlərinin sərgisi keçirilmişdir. Rəsm müsabiqəsi və viktorina qalibləri AzQAC tərəfindən kiçik hədiyyələr ilə mükafatlandırılmışlar. Kampaniyaların iş planlarına uyğun olaraq AzQAC tərəfindən lentə alınmış “Özünü qoru” adlı AİDS videoroliki nümayiş etdirilmişdir. Bütün gün ərzində davam etmiş kampaniya geniş konsert proqramı və diskoteka ilə yekunlaşmışdır. Respublika ərazisində fəaliyyət göstərən bir çox QHT-in əməkdaşları aksiyada iştirak etmişlər.

**Nailiyyətlər:**

İl ərzində proqram çərçivəsində 125 treyner hazırlanıb.
Kampaniyalarda ümumilikdə 4000-dən artıq insan iştirak etmişdir.
Sessiyalarda il ərzində 35364 nəfər maarifləndirilmişdir.

| N | Ay | Maariflənlərin sayı (Nəfər) | Kişi | Qadın |
|---|---|---|---|---|
| 1. | Yanvar | 1440 | 730 | 710 |
| 2. | Fevral | 2100 | 1060 | 1040 |
| 3. | Mart | 2656 | 1411 | 1245 |
| 4. | Aprel | 2565 | 1348 | 1217 |
| 5. | May | 3310 | 1690 | 1620 |

| | | | | |
|---|---|---|---|---|
| 6. | İyun | 2775 | 1388 | 1387 |
| 7. | İyul | 3544 | 1780 | 1764 |
| 8. | Avqust | 3512 | 1755 | 1757 |
| 9. | Sentyabr | 3125 | 1610 | 1515 |
| 10. | Oktyabr | 3122 | 1617 | 1505 |
| 11. | Noyabr | 3550 | 1775 | 1775 |
| 12. | Dekabr | 3665 | 1835 | 1830 |

**2009-cu il ərzində maarifləndirilmiş insanların sayının dioqram göstəricisi**




## HUMANİTAR DƏYƏRLƏR

2009-cu il ərzində Cəmiyyətin Sabirabad, Lənkəran, Mingəçevir Regional Mərkəzlərində 65 nəfər könüllü, məktəbli, tələbə humanitar dəyərlər üzrə seminarlarda, dəirmi masalarda iştirak etmişdir.

“8 may Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının yaranması” günü ilə əlaqədar Pirşağı qəsəbəsi 10 saylı internatdakı 60 nəfər rəsmə meyilli uşağa və Bakı şəhəri 82 və 132 saylı orta məktəbdə inşa müsabiqəsində iştirak edən 58 məktəbliyə BQX/QAH-nın tarixi, tərkib hissələri və onun fəaliyyətləri, həmçinin AzQAC haqqında ətraflı məlumat verilmişdir.

10 mart AzQAC günü ilə əlaqədar Texniki Universitetdə Qan vermə aksiyası təşkil edilmişdir.

2009-cu ildə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin 500 ədəd, 2008-ci il üçün İllik Hesabatı dərc edilmişdir.

“Yeni Təfəkkür”, “Zerkalo”, “Azərbaycan”, “Respublika”, “Vışka”qəzetlərində, 1news, Trend, kaspiy, SIA, AzerTac, APA, Day.az, Navigator.az, Aile-hekimi.az internet xəbər agentliklərində və Azərbaycan Qızıl Aypara Cəmiyyətinin internet səhifəsində toplam olaraq Cəmiyyətin həyata keçirdiyi tədbirlər və fəaliyyətlər barədə 170 məqalə nəşr edilmişdir.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin internet səhifəsi yenilənərək ilin sonunda istifadəyə buraxılmışdır.

## Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının Fundamental Prinsiplərinin və Beynəlxalq Humanitar Hüququn Əsaslarının Yayımı Proqramı

### Məqsəd

Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının (BQX/QAH) tarixi və onun tərkib hissələri, yəni Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK), Beynəlxalq Qızıl Xaç və Qızı Aypara Cəmiyyətləri Federasiyası (Federasiya) və Milli Qızıl Xaç/Qızıl Aypara Cəmiyyətlərinin fəaliyyətləri, Hərəkatın fundamental prinsipləri, Qızıl Xaç, Qızıl Aypara və Qızıl Kristal emblemlərindən düzgün istifadə qaydaları və Beynəlxalq Humanitar Hüququn (BHH) əsasları haqqında məlumatları ictimaiyyət arasında yaymaqdır.

### Tarix

BHH-nin əsasları və BQX/QAH-ın fundamental prinsiplərinin yayımı Cenevrə Konvensiyalarına imza atmış dövlətlərin öhdəliklərindən biridir. Bu işin həyata keçirilməsində Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri yaxından dəstək verir. Silahlı münaqişə zamanı insan hüquqlarının qorunmasına yönəlmiş BHH qaydaları 1949-cu ildə qəbul olunmuş Cenevrə Konvensiyaları və 1977, 2005-ci illərdə onlara əlavə olunmuş protokollarda öz əksini tapır.

Yayım proqramı 1997-ci ildən BQXK-nın maliyyə və texniki dəstəyi ilə həyata keçirilir.

**Fəaliyyət**

Proqram BQXK və Azərbaycan Qızıl Ayprara Cəmiyyəti (AzQAC) arasında bağlanmış əməkdaşlıq sazişi çərçivəsində, 2009-cu ilin fəaliyyət planı əsasında həyata keçirilmişdir.

Fəaliyyət planına uyğun olaraq, 2009-cu il aprelin 28-i AzQAC-ın baş qərargahında regionlarda fəaliyyət göstərən yayım könüllüləri üçün 1 treninq keçirilmişdir. Treninqin məqsədi yayım fəliyyətini regionlarda genişləndirmək, könüllülərə BQX/QAH və AzQAC haqqında son məlumat vermək, təqdimatların düzgün və effektiv təqdim edilməsi üçün müfaviq bilgilər aşılamaq , BQX/QAH-nın yaradılmasının 150, BQX/QACF-nın 90, Cenevrə Konvensiyalarının qəbul edilməsinin 60, AzQAC-ın təsis edilməsinin 89-cu il dönümü ilə bağlı tədbirlər planını birgə müzakirə etməkdən ibarət olmuşdur. Treninqin gündəliyinə yayım könüllüləri üçün nəzərdə tutulmuş və yenilənmiş təlimat kitabından istifadə qaydaları, təsdiq edilmiş yayım siyasəti və onun icra mexanizmi, BQX/QAH və AzQAC haqqında qəbul edilmiş sonuncu hüquqi normativ aktlar haqqında məlumatlar barəsində mövzular daxil olmuşdur. Treninqdə 14 yayım könüllüsü iştirak etmişdir.

Fəaliyyət planına uyğun olaraq, yayım sektoru tərəfindən aşağıda göstərilən tarixdə regionlara səfər edilmişdir. Səfərin əsas məqsədi regionlarda fəaliyyət göstərən yayım könülllərinin təqdimatlarını təlimat kitabı əsasında qiymətləndirərək onlara lazımi düzəlişlər etmək və bu sahədə yayım könüllülərinə müvafiq məsləhətlər verməkdən ibarət olmuşdur. Təqdimatdan sonra müsbət və mənfi tərəflərlər yayım könüllülərinin nəzərinə çatdırılmış, bununla bağlı məsləhətlər verilmişdir. Səfərdə BQXK-nın məsul nümayəndəsi də iştirak etmişdir.

| Tarix | Region | Könüllü | İştirakçı |
|---|---|---|---|
| 26 may | Gəncə | Sücəddin Qurbanov | 9 nəfər |
| 27 may | Mingəçevir | Nüsrət Yusifli | 10 nəfər |
| 16 iyun | Sabirabad | Seyidağa Abbasov | 11 nəfər |
| 17 iyun | Lənkəran | Səmədov Zəfər | 12 nəfər |
| 23 iyun | Bakı | Məmmədov Elçin | 9 nəfər |
| 25 iyun | Sumqayıt | Əhədov Qürbət | 9 nəfər |
| 06 iyul | Qarabağ | Gülşən ... | 9 nəfər |

Fəaliyyət planına uygun olaraq regionlarda fəaliyyət göstərən yayım könüllüləri tərəfindən ətraf rayonlara səfər edilmişdir. Səfərin məqsədi rayonlarda və kəndlərdə yaşayan insanlara BQX/QAH-ın tarixi və komponentləri, fəaliyyətləri, fundamental prinsipləri, BHH-nin əsasları haqqında məlumat verməkdən ibarət olmuşdur. Həmçinin, səfər zamanı insanlara 2009-cu ilin Hərəkat üçün əlamətdar il olması, yəni BQX/QAH-nın 150, BQX/QACF-nın 90, Cenevrə Konvensiyalarının qəbul edilməsinin 60, AzQAC-ın 89-cu il dönümü barəsində də informasiya verilmişdir. Səfər zamanı 420 nəfər maariflənmişdir.

8 may 2001-ci il tarixdə qəbul edilmiş "Qızıl Xaç və Qızıl Aypara emblemlərindən istifadə və onların müdafiəsi haqqında" № 128-II Q saylı Azərbaycan Respublikasının Qanununa və buna müvafiq olaraq 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyaları və onlara əlavə edilmiş müvafiq protokollara uygun olaraq Qızıl Xaç və Qızıl Aypara emblemlərindən düzgün istifadə və onların müdafiəsi ilə bağlı kampaniyalar keçirilmişdir. "Dental House" özəl klinikası qanunsuz olaraq öz reklam lövhəsində və nəqliyyat vasitələrində "Qızıl Xaç" emblemindən qanunsuz istifadə etmişdir. Qızıl Xaç və Qızıl Aypara emblemlərindən istifadə və onların müdafiəsi haqqında mövcud qanunvericiliyə uyğun olaraq məhkəmə qaydasında klinika tərəfindən "Qızıl Xaç" emblemindən sui-istifadənin qarşısı alınmışdır.

KİV-də BQX/QAH-ın tərkib hissələrinin adlarında "Qızıl" sözünün "Qırmızı" kimi işlədilməsinin qarşısının alınması məqsədilə, Azərbaycan Respublikasının müvafiq Qanununa uyğun olaraq "Qırmızı Xaç və Qırmızı Aypara" sözləri "Qızıl Xaç və Qızıl Aypara" sözləri ilə əvəz edilməsi barədə informasiya agentliklərinə məlumat xarakterli məktublar ünvanlanmışdır.

"8 may Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının yaranması" günü ilə əlaqədar Pirşağı qəsəbəsi 10 saylı internatdakı 60 nəfər rəsmə meyilli uşağa və Bakı şəhəri 82 və 132 saylı orta məktəbdə inşa müsabiqəsində iştirak edən 58 məktəbliyə BQX/QAH-nın tarixi, tərkib hissələri və onun fəaliyyətləri, həmçinin AzQAC haqqında ətraflı məlumat verilmişdir. 10 mart AzQAC günü ilə əlaqədar Texniki Universitetdə təşkil edilən Qan vermə aksiyasında 320 ədəd əyani vəsait paylanmışdır.

Mütəmadi olaraq hər ay yeni qeydiyyatdan keçmiş Cəmiyyətin könüllülərinə və üzvlərinə, yeni işçilərə BQX/QAH onun tərkib hissələri və fundamental prinsipləri və BHH-nin əsaları haqqında təlimlər keçirilmişdir. Təlim nəticəsində 34 nəfər maariflənmişdir. Həmçinin AzQAC-da istehsalat təcrübəsi keçən Dövlət Slavyan Universitetinin 20, Qərb Universitetinin 6 tələbəsinə təlim keçirilmişdir.

Ətraflı Məlumatların Toplanması proqramı ilə haqqında baza məlumatlar təqdimata daxil edilərək həm regionlarda, həm də Bakı şəhərində yayım işləri həyata keçirilmişdir. Yayım sektorunun işçiləri ƏMT proqramı ilə bağlı keçirilən görüşlərdə iştirak etmişlər.

Təsisçisi AzQAC olan “Yeni Təfəkkür” qəzetində Cəmiyyətin həyata keçirdiyi tədbirlər və fəaliyyətlər barədə 75 məqalə nəşr edilmişdir. Qəzetin Azərbaycanın müxtəlif regionlarından 500 abunəçisi vardır.

**Nəaliyyət**

- 2009-cu il ərzində Regionlarda fəaliyyət göstərən 14 yayım könüllüsü BQX/QAH və BHH-nin əsasları, AzQAC-ın humanitar fəaliyyəti haqqında son məlumatlar əldə etmiş, yayım siyasəti və onun icra mexanizmi, həmçinin, yayım könüllülərinin yenilənmiş təlimat kitabı və onun istifadə qaydaları ilə tanış olmuşdur.

- BQX/QAH onun tərkib hissələri və fundamental prinsipləri və BHH-nin əsaları haqqında maariflənənlərin sayı cəmi 1153 nəfər təşkil etmişdir. (Təlimlər zamanı Bakı şəhəri üzrə 130 nəfər, regionlar üzrə 449 nəfər, kampaniya, tədbir üzrə 583 nəfər.)

- 1 özəl tibbi klinikada “Qızıl Xaç” emblemindən sui-istifadənin qarşısı alınmışdır.

- “Yeni Təfəkkür” qəzetinin 500 abunəçisi AzQAC-ın tədbir və fəaliyyətləri ilə bağlı 75 məqalə ilə tanış olmuşlar.

## BEYNƏLXALQ ƏLAQƏLƏR

Azərbaycan Qızıl Aypara Cəmiyyəti 2009-cu ildə də beynəlxalq əlaqələri inkişaf etdirməklə bir çox nailiyyətlər əldə etmişdir. Ötən il ərzində cəmiyyətin əməkdaşları çoxsaylı beynəlxalq görüşlərdə, seminarlarda və konfranslarda iştirak edərək cəmiyyəti və Azərbaycan Respublikasını yüksək səviyyədə təmsil etmişlər.

2009-cu il iyun ayının 30-da Özbəkistan Qızıl Aypara Cəmiyyəti haqqında müvafiq Qanunun qəbul edilməsi ilə əlaqədar konfrans keçirilmişdir. Özbəkistan Qızıl Aypara Cəmiyyəti və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının dəvəti ilə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti, Milli Məclisin deputatı cənab Novruz Aslanov və cəmiyyətin İcraçı Katibi Bəylər Talıbov Özbəkistanın paytaxtı Daşkənd şəhərinə rəsmi səfər etmişlər. Konfransda qətnamə qəbul edilərək işçi təşəbbüs qrupu yaradılmış AzQAC haqqında qəbul edilmiş Qanunun tətbiqi ilə bağlı təcrübəni bölüşdüyünə görə Özbəkistan Qızıl Aypara Cəmiyyəti tərəfindən şəxsən AzQAC-ın prezidentinə xüsusi minnətdarlıq bildirilmişdir.

2009-cu il yanvar ayının 26-dan 30-dək Kambodjanın Siem Reap şəhərində Beynəlxalq Qızıl Xaç / Qızıl Aypara Hərəkatının (Hərəkat) "Mina/Partlamamış Hərbi Sürsatlara (PHS) Qarşı Mübarizə" üzrə növbəti beynəlxalq görüşü keçirilmişdir. AzQAC-ı "Mina/PHS-lərə Qarşı Mübarizə" proqramının rəhbəri Bayram Vəliyev təmsil etmişdir.

2009-cu il aprel ayının 01-dən 02-dək Ukraynanın paytaxtı Kiyev şəhərində Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının HİV və AİDS-lə mübirizəyə qarşı Qlobal Alyansının Konfransı keçirilmişdir. Görüş Ukrayna Qızıl Xaç Cəmiyyəti və Beynəlxalq Qızıl Xaç / Qızıl Aypara Cəmiyyətləri Federasiyasının Avropa Zonası tərəfindən təşkil olunmuşdu. Görüşdə AzQAC-ı İcraçı Katib Bəylər Talıbov və müavini Şaban Şayev təmsil etmişlər.

2009-cu il aprel ayının 29-dan 30-dək İsveçrənin Cenevrə şəhərində Beynəlxalq Qızıl Xaç/Qızıl Aypara Cəmiyyətləri Federasiyasının Seçki komotəsinin ikinci iclası keçirilmişdir. İclasda seçki komitəsinin sədri Simalı Amerika qitəsini təmsil edən xanım Karol Pauel (Yamayka), Seçki Komitəsinin üzvü Avropa qitəsini təmsil edən Şaban Şayev (Azərbaycan), Beynəlxalq Qızıl Xaç/Qızıl Aypara Cəmiyyətləri Federasiyasının məsul aməkdaşı Frank Moxerhauer, xanım Eliz Bodo və xanım Korin Orlik iştirak etmişlər.

2009-cu il may ayının 7-də Fransanın Paris şəhərində Fransa Qızıl Xaç Cəmiyyətinin dəstəyi ilə İnsan Pandemiyasına Hazırlıq" layihəsi çərçivəsində Beynəlxalq Qızıl Xaç/Qızıl Aypara Cəmiyyətləri Federasiyası Milli Cəmiyyətlərinin Baş Katiblərini bir araya toplayaraq görüş təşkil etmişdir. Görüşdə ÜST, USAİD, İNTER ACTİON, CORE QROUP kimi təşkilatların Beynəlxalq ekspertləri iştirak etmişlər. Azn Qızıl Aypara Cəmiyyətinin İcracı Katibi Bəylər Talıbov, İcracı Katibin müavini Şaban Şayev və "Pandemiyaya hazırlıq" lahiyəsinin koordinatoru Mətanət Qaraxanova da həmin qörüşdə iştirak etmişdirlər.

2009-cu ilin iyul ayının 13-dən 27-nə kimi Avstriyanın Langenlois qəsəbəsində Avstriya Qızıl Xaç Cəmiyyətinin dəstəyi ilə “Təhsil və dostluq” mövzusunda yay düşərgəsi təşkil edilmişdir. AzQAC-ı bu görüşdə cəmiyyətin könüllüsü Rauf Əliyev və Kamran Talıbov təmsil etmişlər.

2009-cu il iyul ayının 13-də Türk Qızıl Ayı tərəfindən Bursa şəhərində Beynəlxalq yay düşərgəsi keçirilmişdir. Yay düşərgəsində dünyanın müxtəlif ölkələrindən ,o cümlədən İspaniya, Almaniya, Gürcüstan, Suriya, İsrail, Malaziya, Makedoniya və s. 100 nəfərə yaxın gənc dəvət olunmuşdur. Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən Miqrasiya şöbəsinin müdiri Kətanov Məmməd və maliyyə şöbəsinin mühasibi İbrahimova Kəmalə iştirak etmişlər.

2009- cu il dünyada bir çox hadisələrlə fərqlənir. Amma bu hadisələrdən biri də Beynəlxalq Qızıl Xaç / Qızıl Aypara Hərəkatının (BQX/QAH) yaranmasının 150, Beynəlxalq Qızıl Xaç / Qızıl Aypara Cəmiyyətləri Federasiyasının (BQX/QACF) yaranmasının 90, 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyalarının qəbul edilməsinin 60-cı il dönümünün qeyd edilməsidir. İtaliyanın Solferino şəhərində təşkil ediləən bu nəhəng tədbirdə AzQAC-ı Gənclər Komitəsinin sədr müavini Bayram Vəliyev təmsil etmişdir.

2009-cu il iyul ayının sonları və avqust ayının əvvəllərində Türk Qızıl Ayı tərəfindən Bursa şəhərində Beynəlxalq yay düşərgəsi keçirilmişdir. Yay düşərgəsində dünyanın müxtəlif ölkələrindən ,o cümlədən Fələstin, Livan, Gürcüstan, Xorvatiya, Kosovo, Macarıstan, Tacikistan, Turkmənistan, Qazaxstan və s. ölkələrdən 130 nəfərə yaxın gənc könüllü dəvət olunmuşdu. Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən Maliyyə şöbəsinin iqtisadçısı İradə İbrahimova və 4 nəfər gənc könüllü iştirak etmişlər.

2009-cu il sentyabr ayının 22-dən 23-dək Macarıstanın Budapeşt şəhərində Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının Avropa Zonası üzrə Qərargahında təşkilati inkişaf üzrə beynəlxalq görüş keçirilmişdir. Beynəlxalq görüşdə AzQAC-ı Gənclər Komitəsinin sədr müavini, Silahlara Qarşı Mübarizə proqramının məsləhətçisi Bayram Vəliyev təmsil etmişdir.

2009-cu il sentyabr ayının 14-dən 18-dək Türkiyə Cümhuruyyətinin paytaxtı Ankarada Avropa Birliyinə, daha dəqiq desək Avropa Komissiyasına humanitar layihələrin planlaşdırılması və yazılması üzrə 5 günlük seminar-məşğələ keçirilmişdir. AzQAC-ı bu seminarda Gəlirgətirmə Şöbəsinin müdiri Günel Quliyeva və Gənclər Komitəsinin sədr müavini, Silahlara Qarşı Mübarizə proqramının məsləhətçisi Bayram Vəliyev təmsil etmişlər.

2009-cu il sentaybr ayının 25-dən 28-dək Qırğızıstan Qızıl Aypara Cəmiyyətinin, HIV/AIDS və Vərəmə qarşı Avropa Regional Şəbəkəsinin birgə təşkilatçılıgı ilə Qırğızıstan Respublikasının İsıkkul gölü ətrafında ERNA-nın 13-cü illik, ənənəvi görüşü keçirilmişdir. Görüşdə Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri (BQX və QAC) Federasiyasının Avropa Zonasında birləşən 52 dövlətin Milli Cəmiyyətlərinin nümayəndələri, HİV və AİDS sahəsində işləyən müxtəlif qeyri-hökumət təşkilatlarının əməkdaşları, ERNA Şəbəkəsinin prezidenti, vitse-prezidenti və məsul katibi iştirak etmişlər. Görüşdə Azərbaycan Qızıl Aypara Cəmiyyətini İcraçı Katibinin müavini, HIV/AIDS proqramının koordinatoru Şaban Şayev, Saglamlıq və qaygı şöbəsinin müdiri Mətanət Qaraxanova, Gənclər və könüllülər şöbəsini müdiri Xalidə İsgəndərova təmsil etmişlər.

2009-cu il noyabr ayının 18-dən 21-dək Keniyanın paytaxtı Nayrobi şəhərində Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının (Beynəlxalq

Federasiya) XVII Baş Assambleyası, bunun ardından isə 23-25 noyabr 2009-cu il tarixlərində həmin şəhərdə Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının (Hərəkat) Nümayəndələr Şurasının görüşü keçirilmişdir. Beynəlxalq Federasiyanın tam və bərabər hüquqlu üzvü AzQAC da Baş Assambleya və Nümayəndələr Şurasında iştirak etmək üçün 4 nəfərdən ibarət Nümayəndə Heyəti ilə Kenyanın paytaxtı Nayrobi şəhərinə ezam olunmuşdur. Nümayəndə heyətinin rəhbəri kimi Milli Cəmiyyətin İcraçı Katibi Bəylər Talıbov, heyətin üzvləri qismində İcraçı Katibin müavini, həmçinin Federasiyanın Seçki Komissiyasının üzvü Şaban Şayev, Milli Cəmiyyətin Gənclər Komitəsinin sədr müavini, (Baş Assambleyada gəncləri təmsil edən nümayəndə kimi) həmçinin Silahlara Qarşı Mübarizə proqramının məsləhətçisi Bayram Vəliyev və Cəmiyyətin İlk Yardım Sektorunun rəhbəri Şahin Biləndərli təmsil olunmuşlar.

2009-cu il avqustun 17-də İsrail Magen David Adom Milli Cəmiyyətinin nümayəndə heyəti Azərbaycan Qızıl Aypara Cəmiyyətinə səfər etmişdir. Səfərin əsas məqsədi Azərbaycan Qızıl Aypara Cəmiyyətinin işçi heyətinə və könüllülərinə həkimə qədər göstərilən ilk yardım haqqında təlim keçmək onlara bu sahədə bilgilər vermək olmuşdur. Israil Magen David Adom Milli Cəmiyyətinin nümayəndə heyətinin tərkibinə Cəmiyyətin əməkdaşları Boris Kozokin və David-Frid Appelbaum daxil olmuşlar.

2009-cu il noyabr ayının 24-dən 25-dək Macarıstanın Budapeşt şəhərində Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının Avropa Zonası üzrə Qərargahında Maliyyə üzrə treyninqdə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Maliyyə şöbəsinin müdiri Ceyhun Mirzəyev və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının Azərbaycandakı nümayəndəliyin başçısı Səbinənur Məhbubi – İran iştirak etmişlər.

2009-cu il dekabr ayının 23-dən 26-dək DİPECHO layihəsi üzrə Haim Rafalovski və Marianna Liptuqa Azərbaycana rəsmi səfər etmişlər.

## GƏNCLƏR VƏ KÖNÜLLÜLƏR

**Məqsəd:**

Ümumi məqsəd: QAC-də Gənclər və könüllülərin idarəetmə, cəlbolunma və qeydiyyatının yaxşılaşdırılması məqsədilə effektiv gənclər və könüllülər idarəetmə sisteminin inkişaf etdirilməsi.

**Treyninq Modul kursları**

**Məqsəd:**

- Treyninq modulun hazırlanmasında məqsəd:
- Qızıl Xaç və Qızıl Aypara Hərəkatının tarixi;
- 7 Fundamental Prinsip;
- Fəaliyyət haqqında;
- Yeni gələn könüllüləri QAC-ın rayon bölməsinin fəaliyyətində iştirak və iş görməyə həvəsləndirməkdir.
- İl ərzində 1900 nəfər modul treyninq kursunu dinləmiş, 64 nəfər Mingəçevir, Sumqayıt, Lənkəran, Sabirabad, Gəncə RM-nin könüllülərini isə modul treyninqlə əlaqədar təlimatçı kimi hazırlanmışdır. Həmin təlimatçılar rayonlarda əhali üçün treyninqlər həyata keçirirlər.

**Lider treyninq kursları:**

7 regional mərkəzin gənclərlə iş üzrə koordinatorları, icma proqramı çərçivəsində fəaliyyət göstərən könüllülərə və həmin rayonun gənclər üzrə təlimatçıları və könüllülər üçün ümümilikdə 130 nəfərə lider treyninq kursları keçirilmişdir.

- Lider kimdir?
- Kurs zamanı müxtəlif oyunlar;
- Şəxsi və kommunikasiya bacarıqları;
- Layihə nə deməkdir?
- Layihənin yazılması
- Partnyorların və donorların axtarışı
- Donorlarla praktiki iş
- Gəzintilər və s.

Artıq lider treyninq keçmiş treynerlər öz regionlarında təlimə başlayıblar. Təlim çox uğurlu nəticələr verir.

Uşaq evlərində fəaliyyət göstərən könüllülər üçün sosial təlimlər. Sumqayıt, Lənkəran, Gəncə, Mingəçevir rayonlarının uşaq evlərində fəaliyyət göstərən 84 nəfər könüllü üçün sosial treyninq keçirilmişdir.

Proqrama əsasən 7 RM-in və hər bir mərkəzin ərazisində yerləşən 3 məktəbdə hər məktəbdə 25 şagird olmaqla 525 nəfər məktəbli üçün “İlk yardım” və hərakatın yayımı haqqında 3 ay ərzində təlimlər aparılmışdır. Təlimin nəticəsi olaraq 3 etapdan ibarət olaraq yarış keçirilmiş, bu yarışlar 1-ci mərhələdə rayonda məktəblər arası, 2-ci mərhələ RM-r arasında, 3-cü mərhələdə Bakıda yekun yarışlar keçirilmişdir. Yarışda qalib gələn şagirdlər mükafatlandırılmışdır.

Gəncə, Lənkəran, Mingəçevir, Sumqayıt, Sabirabad RM-də məktəblilər və tələbələr üçün HİV/AİDS, sağlamlıq, humanitar dəyərlər, ilk yardım, liderlik, fövgaladə hallara hazırlıq, sosial iş kimi məşğələlər keçirilərək təqdimatlar aparılmışdır. Ümumilikdə 1640 nəfər iştirak etmişdir. Bu səpkidə tədbirlərin keçirilməsi gələcəkdə daha da çox QAC-nə könüllülərinin cəlb olunmasına səbəb olacaqdır.

**Mərkəzi və Regional Gənc Könüllülər Şurasının görüşləri**

İl ərzində 2 mərkəzi gənc könüllülər şurasının görüşü keçirilmişdir.

Regional görüşlər isə

- Sumqayıt RM-də 2 dəfə
- Mingəçevir RM-də 2 dəfə
- Gəncə RM-də 2 dəfə
- Lənkəran RM-də 2 dəfə
- Bakı RM-də 2 dəfə
- Sabirabad RM-də 2 dəfə
- Umumi 13 Mərkəzi və Reqional Gənclər Şurasının görüşləri keçirilmişdir.

**Məqsəd:**

Mərkəzi və regional səviyyədə işçilərə könüllülər arasında əlaqələri yaxşılaşdırmaq. Daha yaxşı fəaliyyət göstərməsinə köməklik etmək və regional gənc könüllülər şurası yaratmaqla könüllülər üçün yaxşı idarəetmə sistemini təşkil etmək.

**Könüllülərin elektron qeydiyyatının inkişaf etdirilməsi**

**Məqsəd:**

Ölkə üzrə könüllüləri effektiv şəkildə toplayıb inkişaf etdirməkdir.

Hal-hazırda elektron qeydiyyatı Baş Qərargahın Gənclər şöbəsində, Sumaqayıt, Zaqatala, Mingəçevir, İsmayıllı, Şamaxı, Gəncə RM-də yaradılıb. Qalan rayon və regionlarda şöbə tərəfindən hazırlanmış elektron qeydiyyatı blanklarından istifadə olunur. Ancaq gələcəkdə nəzərdə tutulub ki, regionlarda elektron

qeydiyyatlardan istifadə olunsun. Hər ay rayon bölmələrindən könüllülərin qeydiyyatının məlumatı şöbəyə çatdırılaraq elektron qeydiyyatında qeyd olunur. Bu da könüllülərin hansı proqramlarda fəaliyyət göstərməsinə və koordinasiya olunmasına dəqiqlik gətirir. İl ərzində ümumilikdə 18.470 nəfər QAC-nin könüllüsüdür.

**Əlil uşaq evlərində sosial fəaliyyət**

**Məqsəd:**

- Əlil uşaqlara maddi və mənəvi yardım göstərmək.
- Onları təhsilləndirmək və dərslərinə köməklik göstərmək.
- Qismən də olsa onların müəyyən qayğılarını unutdurmaq.

Salyan, Lənkəran, Sumqayıt, Gəncə, Mingəçevir rayonlarında yerləşən kimsəsiz uşaq evlərində və Sumqayıtda evlərdə yaşayan əlil uşaqlarla sosial işlər aparılır. Həmin sosial işlər aşağıdakılardır:

- Uşaqların gəzintisi,
- Rəsm,
- Toxumaq,
- Idman,
- Musiqi,
- Dərslərinə kömək,
- Təsviri incəsənət və.s

Fəaliyyəti həyata keçirmək üçün ləvazimatlar alınıb uşaq evlərinə və könüllülərə istifadə üçün verilmişdir.

Sabirabad, Sumqayıt, Mingəçevir, Lənkəran, Gəncə RM-rayon komitələrinin könüllüləri üçün Könüllülərin cəlb olunması kampaniyası keçirilmişdir.

Tədbir kampaniya xarakteri daşıyırdı.

Tədbirlərdə regional mərkəzlərin və rayonların könüllüləri, Mərkəzi Gənc Könüllülərin Şuralarının üzvləri, Regional Mərkəzlərin gənclərlə iş üzrə koordinatorları, könüllülər və.s ümumilikdə 8070 nəfər iştirak etmişdir.

- Gənclər və könüllülər şöbəsinin təqdimatı
- HİV/AİDS proqramının təqdimatı
- Sosial iş
- Sağlamlıq və qayğı
- İlk yardım
- Beynəlxalq əlaqələr

**2-ci hissə**

- Qruplarla iş
- Qrupların təqdimatı

- Furşet və diskoteka

**Lənkəran uşaq evində “ Yay istirahət düşərgəsi “**

Hər il olduğu kimi bu il iyul ayında Lənkəran rayonunda yerləşən kimsəsiz uşaq evində Qızıl Aypara Cəmiyyətinin Gənclər və könüllülər şöbəsi tərəfindən “ Təhsil yönümlü yay istirahət düşərgəsi “ təşkil edilmişdir.

Təşkil olunmuş düşərgədə 72 nəfər uşaq və yeniyetmə, 5 nəfər könüllü, 7 nəfər uşaq evinin müəllim heyəti, şöbənin və RK-nin əmkdaşları iştirak etmişlər. Ümumilikdə 89 nəfərin iştirakı ilə keçirilən yay istirahət düşərgəsindən proqrama əsasən Azərbaycan QAC-nin, BQXK və BQX və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının hərəkatı haqqında məlumat və video klipə baxış, müxtəlif treyninqlər, intellektual, rəsm və idman yarışları, tarixi muzeylərdə gəzintilər, musiqi əyləncəli proqramlar təşkil olunmuşdur.Düşərgəni keçirməkdə məqsədimiz uşaqların yay tətili zamanı vaxtlarını əyləncəli keçirmək, onları psixi sarsıntılardan azad etmək, təhsil proqramlarını unutdurmamaq, onlara sosial qayğı göstərməklə, qismən də olsa müəyyən qayğılarını unutdurmaqdır.

Azərbaycan Qizil Aypara Cəmiyyətinin Gənclər və Könüllülər söbəsi, Gənclər Komitəsi Kəlbəcər və Xocali rayon bölmələri ilə birlikdə Dünya Azərbaycanlılarının həmrəylik və “Yeni il” münasibəti ilə tədbir kecirmişdir.

Tədbirdə 50 nəfər imkansiz ailənin uşaqları iştirak etmişdir. Tədbir əl oyunlari sarayinda Azpetrol sirkətinin dəctəyi ilə həyata kecirilmisdir.Tədbirdə uşaqlar rəngarəng proqramlara tamaşa etmiş, sonda uşaqlara Yeni il hədiyyəiəri təqdim olunmuşdur.

Tədbirin keçirilməsində məqsəd :

“Yeni il” ilə əlaqədar kimsəsiz uşaqlarin mənəvi və psixoloji rifahının yüksəldilməsi.

Uşaqlara sosial qayği göstərmək;

Uşaqlara “Yeni il”hədiyyələri ilə təmin etməklə bayram əhval - ruhiyyəsi yaratmaq

Qismən də olsa uşaqlarin iztirablarini azaltmaq.

**Çap materialları**

**Məqsəd:**

Maarifləndirmə, yayim materiallarının yeni növünü nəşr etmək və Az.QAC –in xüsusi ilə ğənc könüllülərin daha yaxşı fəaliyyət ğöstərilməsinə yardım etmək. Könüllülərlə işləyərkən onlarin bacarıq və qabliyyətlərini dəstəkləmək.

**Nailiyyət:**

Könüllülər üçün 1000 ədəd təlim kitabçasi ,100 ədəd QAC- emblemini əks etdirən mayka, 100 ədəd QAC- emblemini əks etdirən papaq ,100 ədəd QAC- nin loqosu hazırlanaraq proqram cərcivəçində kecirilən tədbirlərdə istifadə olunmuşdur. Bu da ğənclərin və könüllülərin diqqətini cəlb edir, onları həvəsləndirir.

**Beynəlxalq əlaqələr**.

2009-cu ilin iyul ayında Türk Qızıl Ayı tərəfindən Bursa şəhərində, Avstriyanın Lancenlois kəndində və İtaliyanın Solferino kəndində Gənclər və könüllülər üçün keçirilən yay istirahət düşərgəsində 9 nəfər gənc istirahət etmişdir. Gənclər üçün istirahət vaxtı təhsil və dostluq treyninqləri, hərəkata aid treyninqlər, intellektual oyunlar, tarixi muzeylərdə gəzintilər və.s təşkil olunmuşdur.

**Treyninq Modul, lider və planlaşdirma kursları**

**Məqsəd:**

Treyninq modul, lider və planlaşdirma kurslarının hazırlanmasında məqsəd:

- Qızıl Xaç və Qızıl Aypara Hərəkatının tarixi;
- 7 Fundamental Prinsip;
- Fəaliyyət haqqında;
- Planlaşdırma
- Layihələrin yazılması
- Şəxsi və kommunikasiya bacarıqları
- Donorlarla iş və s.

**Nailliyyətlər:**

Artıq lider, modul, planlaşdırma treyninqlərini keçmiş könüllülər öz regionlarında təlimə başlayıb. Təlim çox uğurlu nəticələr verir.

Mərkəzi və Reqional Ğənc Könüllülər Şurasının görüşləri

**Mərkəzi və Regional Gənc Könüllələr Şurasının görüşləri**

**Məqsəd:**

Mərkəzi və regional səviyyədə işçilərə könüllülər arasında əlaqələri yaxşılaşdırmaq. Daha yaxşı fəaliyyət göstərməsinə köməklik etmək və regional gənc könüllülər şurası yaratmaqla könüllülər üçün yaxşı idarəetmə sistemini təşkil etmək.

**Nailiyyət:**

Mərkəzi və Regional Gənc Könüllülər Şurasının görüşlərinin keçirilməsi nəticəsində könüllülər artiq rayonlarda koordinasiyanın sərbəst şəkildə idarə olunmasina nail olub.

## GƏNCLƏR KOMİITƏSİ

**Məqsəd:**

Azərbaycan Qızıl Aypara Cəmiyyəti Gənclər Komitəsinin (Az.QAC Gənclər Komitəsi) əsas məqsədi Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatını rəhbər tutaraq gənc (uşaqlar,yeniyetmələr,məktəblilər,tələbələr,əlil uşaq və gənclər) insanlar arasında Könüllülük Hərəkatının inkişafı,Beynəlxalq Humanitar dəyərlərinin aşılanması,sülh,qarşılıqlı hörməti və anlaşma ideyalarını geniş şəkildə yaymaq,gənclərin asudə vaxtlarının səmərəli keçməsi məqsədilə,maarifləndirmə, sağlam həyat tərzinin formalaşması və mənəvi rifahını yüksəldilməsi sahəsində fəaliyyətlər həyata keçirməkdən ibarətdir.

**Fəaliyyətlər:**

2009-cu ildə AzQAC Gənclər komitəsi zavallı insanların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində bir sıra humanitar fəaliyyət həyata keçirmişdir.

2009-cu ilin yanvar ayında “Yeni il münasibəti ilə” Binəqədidə məskunlaşmış Xocalı rayonından olan 120 nəfər imkansız ailənin uşaqları üçün McDonald”sda tədbir keçirilmişdir. Uşaqlar McDonaldsda oyun atraksionlarında əylənmiş, onlara müxtəlif hədiyyələr verilmiş, sonda uşaqlara “Yeni il”şənliyində iştirak etmək üçün biletlər təqdim edilmişdir.

2009-cu ildə Az.QAC-ın Gənclər Komitəsi tərəfindən “Gənclər günü “ münasibəti ilə Bakı şəhəri Yasamal rayonunda yerləşən gecə-gündüz uşaq bağçasında tərbiyə alan imkansız ailələrin uşaqları üçün tədbir keçirilmişdir. Tədbir zamanı uşaqlar kukla teatırında tamaşaya baxmış,dəniz kənarında yerləşən əyləncə mərkəzlərində vaxtlarını səmərəli keçirmiş və onlara nahar süfrəsi verilimşdir.

AzQAC-ın 89-cu il dönümü ilə əlaqədar 07.03.09 tarixdə Əzizbəyov rayonunun Şüvəlan qəsəbəsində yerləşən Lal və kar internat məktəbində təhsil alan 50 nəfər uşaq üçün və Kəlbəcər rayonundan olan 80 uşaq üçün McDonald'sda tədbir

keçirilmişdir.Tədbirdə uşaqlar üçün intellektual yarışlar, musiqili əyləncəli proqramlar hazırlanmış və hədiyyələr təqdim olunmuşdur.

AzQAC-ın 89-cu il dönümü ilə əlaqədar Pirşağı qəsəbəsində Yel xəstəliyindən əziyyət cəkən 130 nəfər uşaq üçün “Bizim dünya Sizin hərəkat”adlı şəkil müsabiqəsi keçirilmişdir. Çəkilən şəkillərin Uşaq Qalereyasında sərgisi keçirilmiş, qalib gələn uşaqlar mükafatlandırılmışdır.

1iyun ”Uşaqların Beynəlxalq müdafiəsi günü” ilə əlaqədar 6№ uşaq xəstəxanasında 170 uşaq və AİDS-dən əziyyət çəkən 18 nəfər uşaq üçün tədbir keçirilmişdir.Tədbir zamanı uşaqlara musiqili əyləncəli proqramları, intellektual oyunlar və s. təqdim edilmişdir. Sonda hər iki xəstəxanaya idman ləvazimatları, uşaqlara müxtəlif hədiyyələr və AİDS-dən əziyyət çəkən uşaqlara süni qida məhsulları verilmişdir.

13 sentyabr “Ümumdünya ilk yardım günü”ilə əlaqədar çətin tərbiyyə olunan qapalı Uşaq koloniyasında tədbir keçirilmişdir. Tədbir müsabiqə xarakteri daşıyırdı. Müsabiqədə SOS uşaq kəndinin, “Uşaqdan-uşağa sülh şəbəkəsi”nin və uşaq koloniyasının uşaqları, iştirak edirdilər. Sonda qalib gələn komandalara hədiyyələr verilmişdir.

15 sentyabr “Bilik günü” ilə əlqədar Kəlbəcər və Xocalı rayonlarından olan 70 nəfər uşaq üçün Kainat Gənclər mərkəzinin dəstəyi ilə tədbir keçirilmişdir.Tədbirin sonunda uşaqlara məktəbli cantaları və dərs ləvazimatları verilmişdir.

## TƏŞKİLATİ İNKİŞAF

2009-cu ilin əvvəlindən etibarən QAC-nın bütün Regional mərkəzlərinin və yerli bölmələrinin iş və tədbirlər planı tərtib edilərək təsdiq edilmişdir. Ötən ilin illik yekun hesabatları analiz edilərək nəticələr müəyyən edilmişdir. QAC-nin XXIII Baş Məclisinə hazırlıqla əlaqədar 2009-cu ilin əvvəlindən etibarən QAC-nın bütün Regional mərkəzlərinin və yerli bölmələrinin iş və tədbirlər planı tərtib edilərək nəticələr müəyyən edilmişdir. Ötən ilin illik yekun hesabatları analiz edilərək nəticələr müəyyən edilmişdir. QAC-nın XXIII Baş Məclisinə hazırlıqla əlaqədar lazımi sənədlər qaydaya salınmışdır. Yerli bölmələrdə Rəyasət Heyətinin iclaslarının vaxtlı-vaxtında keçirilməsi təşkil olunmuş, iki yerli bölmədə (Cəlilabad, Gəbələ) kadr dəyişikliyi edilmişdir.

2009-cu ilin mart ayının 10-da QAC-nın 89 illik ildönümü təntənəli surətdə qeyd edildi. Tədbirin keçirilməsi üçün Təşkilat İdarəsinin əməkdaşları lazımi təşkilatı məsələləri həll etmişdir. QAC Bakı RM-ə daxil olan yerli bölmələr bu tədbirlərin keçirilməsində yaxından iştirak etmişlər. Eyni zamanda digər yerli bölmələr ildönümü ilə əlaqədar bir sıra silsilə tədbir həyata keçirmişdir.

10 yerli bölmə səmərəli fəaliyyətlərinə görə AzQAC-nin Fəxri Fərmanları ilə təltif edilib. QAC üzrə ilk təşkilatların sayı 6125, üzvlərin sayı 265156 nəfər təşkil edir. 2009-cu il ərzində rüblər üzrə Regional koordinatorları ilə mütəmadi görüşlər keçirilmiş, gündəlik təşkilatı məsələlər diqqət mərkəzində saxlanılmışdır. Yerli bölmələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində xeyli işlər görülmüşdür. Belə ki, il ərzində 7 bölmə xidməti avtomobillə təmin edilmişdir. 31 yerli İcra Hakimiyyəti orqanlarına müvafiq məktublar göndərilmişdir.

Təhsil və Səhiyyə İdarələrində təşkilatı məsələlərlə bağlı mütəmadi görüşlər keçirilmişdir. Müxtəlif idarə və müəssisələr tərəfindən daxil olmuş müraciətlərə baxılaraq aidiyyatı üzrə müvafiq tədbirlər görülmüşdür.

2009-cu ilin maliyyə planlarının rüblər üzrə ödənişinin təmin olunması daim diqqət mərkəzində saxlanılmışdır.

2009-cu ilin dekabr ayının 8-də Cəmiyyətin XXIII Baş Məclisi keçirildi. Baş Məclisin işində bölgələrdən seçilmiş 220 nəfər nümayəndə iştirak etdi. Baş Məclis Cəmiyyətin 08 aprel 2008-ci ildən 08 dekabr 2009-cu il tarixə olan müddət ərzində görülmüş işləri müzakirə edərək qənaətbəxş hesab etdi. Eyni zamanda Baş Məclis İdarəetmə Şurasının və Rəyasət Heyətinin yeni tərkibini seçərək təsdiq etdi. Baş Məclis həmçinin QAC Rəyasət Heyətinin il ərzində keçirilən iclaslarda qəbul etdiyi qərarları nəzərə olaraq təsdiq etdi. Beləliklə XXIII Baş Məclis gündəlikdə duran əsas məsələləri müzakirə edərək öz işinə yekun vurdu.

**İlk Təşkilatların sayı**




**Üzvlərin sayı**




## RAYON BÖLMƏLƏRİNİN İNKİSAFI

### Məqsəd

Proqramın məqsədi sosial və sağlamlığın faktorlarını nəzərə almaqla icmalarda imkansızlığın azaldılmasına nail olmaıq məqsədi ilə Azərbaycan Qızıl Aypara Cəmiyyətinn ümumi strukturlarının və imkanlarının gücləndirilməsi

### Fəaliyyətlər

-2009 cu il ərzində yerli İcra Hakimiyyətləri, bələdiyyələr, beynəlxalq və yerli təşkilatlar ilə əməkdaşliq davam etdirilib. Adı çəkilən təşkilatların nümayyəndələri AzQAC tərəfindən keçirilən treyninqlərdə mütəmadi olaraq iştirak edib.

-Gəncə, Zaqatala, İmişli və Xanlar Rayon bölmələrinin imkanlarının qiymətləndirilməsi aparılmış və onun nəticəsi olaraq "İcmalarda ehtiyacların qiymətləndirilməsi", "Layihələrin planlaşdırılması və idarə edilməsi", "Monitorinq və Hesabatlılıq" və "ilk yardim"üzrə 170 nəfər işçi və könüllü üçün 5 treyninq kecirilmişdir.

-Həmçinin 1 "ictimai əlaqələr" və Qızıl Aypara Cəmiyyətinin fəaliyyətinə dair həmin rayon bolmələri üçün treyninqlər keçirilmişdir.

-Gəncə, Zaqatala, İmişli və Xanlar RB –ri tərəfindən icmlarda "Ümumdünya Qızıl Xaç və Qızıl Aypara Günü", "Beynəlxalq Sağlamlıq günü", Siqaret və TB əleyhinə kampaniya və tədbirlər keçirilmişdir. Bütün bu tədbirlərdə ümumilikldə 750 nəfər icma üzvü iştirak etmiş.

-Qızıl Aypara bölmə könüllüləri İlk yardim üzrə 1735 nəfərə təlim vermişlər və daha 2800 nəfərə isə profilaktik sağlamliq üzrə təhsil verilmişdir. “Beynəlxalq İlk Yardim Günün”də İcmlarda 4 İlk yardım kampaniyasi kecirilmiş və 3 səhiyyə maarifi kampaniyası təşkil edilmişdir.

-Həmçinin bu layihə çərçivəsində bütün icmalarda 4 tədbirlərdə kecirilmiş 100 icma üzvü fəal surətdə iştirak etmişdir.

May ayında Gürcüstan respublikasinda “Sosial yardim” mövzusuna həsr olunmuş treyninqdə layihənin koordinatoru da iştirak etmişdir.

**Nailiyyətlər**

-Azərbaycan Qızıl Aypara Cəmiyyətləri Federasiyasının birgə keçirdiyi Qiymətləndirmə Milli Cəmiyyətinin imkanlarının geniş mənzərəsini verməyə imkan vermişdir. Bölmələrin material və texniki imkanlarını da yaxşilaşdırmaq, bu da Qızıl Aypara işçilərinin və könüllülərinin özünə inamı, maraq və motivasiyanı artırmışdır. İnternetdən istifadə imkanı dahada çox könüllərin bölmə fəaliyyətinə cəlb etmişdir.

-Gəncə, Zaqatala, İmişli və Xanlar bölmələri könüllülərin idarəedilməsini gücləənəndirmişdirlər. Onlar bölmə inkişafi işində hər bir könüllünün rolulu təyin etmişlər. Bütün könünllər məlumat bazasına qeydiyyata alınmışlar.

-Yerli İcra hakimiyyətləri ilə əmkdaşlıq gücləndirilmişdir. Layihədən əvvəl bölmələr yalniz ərzaq və dərman preparatlarının bölüşdürülməsi işinə cəlb olunmuşdur, hazırda onların işi İlk yardim, səhiyyə maarifi və humanitar dəyərlərin yayımlanması kimi sahələri əhatə edir. Bölmələr həmçinin, müxtəlif sosial fəaliyyətlərə başlamışlar. Bölmələrdən alınan maliyyə və fəaliyyət hesabatları yaxşılaşmışdır. QAC-nin bölmələri cəmiyyətin bölmələri öz fəaliyyətində iştirak edən qadın və gənclərin sayını artıra bilmişlər. Layihənin ilkin mərhələsində təkcə 200 qadın və 76 gənc iştirak edirdi. Layihənin sonunda isə bu rəqəm artmışdir. Belə ki, 800-dən artıq qadın və 520 gənc profilaktik sağlamlig, ilk yardım və bacarıgların təlimi sahəsində Qızıl Aypara Cəmiyyəti ilə birgə calışmışdır.

-29 nəfər könüllü “İcmalarda ehtiyacların qiymətləndirilməsi, 26 nəfər İcma könüllüləri “Sağlamliq” üzrə 27 nəfər işçiləri “Layihənin planlaşdırılması və idarə edilməsi” və 22 nəfər RB könüllüsü “Sosial qayği” üzrə 6 təlim keçərək bilik və bacarıqlarını artırmışlar.

Icmalarda keçirilən tədbirlərdə ümumiyyətlə 3750 icma üzvü fəal iştirak etmişdir ki, bu da icmalarda AzQAC-a olan maraqlarının artırılmasıdır.

**Problemlər**

- Hazırki layihə çərçivəsində aparılan icma iştiraklı inkişaf üsulu Qızıl Aypara Cəmiyyətinin yerli bölmələri üçün yeni bir üsul idi. Bəzi bölmələrin işçi heyəti üçün bunu qəbul etmək və başa düşmək bir qədər mürəkkəb olmuşdur.
- RB-nin ucqar kəndlərdə yerləşən icmalara səfələrinin sayı bir qədər azalmış və orada monitorinqi vaxtında keçirmək mümkün olmamışdır. Bunun əsas səbəbi proqram daxilində Federasiya tərəfindən yanacaq xərclərinin dayandırılması olmuşdur.

**Tövsiyələr**

- İştiraklı İcma İnkişafı metodlu RB-nin inkişafının AzQAC-ın Strateji Planında xüsusi yerinin olması və 2008-2010-cu il üçün hazırlanacaq Strateji Planına salınması tövsiyə edilir.
- 2010-cu ildə yeni Rayon Bölmələrinin seçilməsi nəzərdə tutulur ki, bununla da artıq bu layihəyə cəlb olunan Rayon bölmələrinin sayının 22-ə çatması gözlənilir, bu da AzQAC RB-nin təxminən 25%-ı deməkdir.

## HUMANİTAR YARDIM

**Məqsəd:**

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin imkanlarını və insanlığın gücünü səfərbər edərək, yardıma ehtiyacı olan ahıl, tənha-xəstə, qaçqın və məcburi köçkün ailələrə, aztəminatlı və təbii fəlakətlərdən zərər çəkmiş zavallı insanlara müxtəlif formada köməklik göstərmək, humanitar dəyərləri rəhbər tutaraq insanlar arasında bir-birlərinə köməklik etməsini aşılamaq;

**Fəaliyyət:**

Azərbaycan QAC Katibliyinə, Regional Mərkəzlərə və yerli bölmələrə çoxlu sayda ərizə, telefon zəngləri və müxtəlif səpkili müraciətlər daxil olur. Milli Cəmiyyət humanist prinsipləri rəhbər tutaraq, həmişə olduğu kimi müraciətlərə fərdi qaydada baxır, hər müraciət barəsində müvafiq qərar qəbul olunur və imkan daxilində yardım göstərilir.

Azərbaycan QAC-ın Prezidenti Novruz Aslanovun təsdiq etdiyi cədvələ uyğun olaraq, Cəmiyyətin rəhbərliyinin və Katibliyin humanitar yardım şöbəsinin əməkdaşının iştirakı ilə Bakı Regional Mərkəzində yardıma ehtiyacı olan aztəminatlı insanların qəbulu təşkil edilir. Rayon bölmələrində belə qəbulların keçirilməsi, Katibliyin Humanitar Yardım şöbəsi tərəfindən daim tövsiyyə olunur. Son illər bu cür qəbulların keçirilməsi bir çox yerli bölmənin fəaliyyətində öz əksini tapmışdır.

Cəmiyyətin missiyasına aidiyyatı olan zavallı insanların rayonlar üzrə sayının müəyyənləşdirilməsi və qeydiyyat siyahılarının tərtibi işi daima davam etdirilir. Aztəminatlarının müəyyənləşdirilməsi və qeydiyyata alınması yarli bölmələrin fəaliyyət istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir. Azərbaycan Qızıl Aypara Cəmiyyəti Humanist prinsipləri rəhbər tutaraq həmişə olduğu kimi, bu gün də əhalinin aztəminatlı təbəqəsinə, xroniki xəstələrə ahıl-

tənhalara və digər yardıma ehtiyacı olan insanlara öz imkanları daxilində humanitar yardın göstərir.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin əsas fəaliyyət prioritetlərindən biri də Cəmiyyətin mümkün olan bütün imkanlarını və insanlığın gücünü səfərbər edərək zavallı insanlara tibbi və sosial xidmət göstərməkdir.

Bu gün təkcə Bakı şəhərində 3000 nəfərdən artıq yardıma və tibbi-sosial xidmətə ehtiyacı olan ahıl-tənha, xroniki xəstə rayon bölmələrində qeydiyyatdadır.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Prezidenti Novruz Aslanovun maliyyə dəstəyi və təşəbbüsü ilə Bakı şəhərində yaşayan və qeydiyyatda olan bir qrup daha çox yardıma və tibbi-sosial qayğıya ehtiyacı olan zavallıların rifahını qismən də olsa yaxşılaşdırmaq məqsədi ilə 01 avqust 2008-ci il tarixdən başlanmış «Mərhəmət sorağında » adlı pilot layihə 2009-cu ildə davam etdirilmişdir.

Layihənin həyata keçirilməsində əsas məqsəd zavallı insanlara zəruri ərzaq yardımı göstərmək, Katibliyin, rayon bölmələrinin əməkdaşlarının, tibb bacılarının və könüllülərinin gücünü səfərbər edərək tibbi-sosial xidmət sahəsinə yönəltməkdir.

«Mərhəmət sorağında» pilot layihə hələlik Bakı Regional Mərkəzinin strukturuna daxil olan 11 rayon bölməsi üzrə layihə çərçivəsində rayon bölmə sədrlərinin şəxsi vəsaitləri ilə edilən yardımlar nəzərə alınmaqla ümumilikdə 56 zavallı insana hər ay zəruri ərzaq və tibbi-sosial xidmət üzrə yardım göstərilir.

Rəhbərlik tərəfindən layihənin həyata keçirilməsi üzrə cavabdeh şəxslərin siyahısı təsdiq edilmişdir, icra mexanizmi, humanitar yardımın miqdarı və tibbi-sosial xidmətin təsnifatı layihədə öz əksini tapmışdır.

Qeyd edək ki, ümumilikdə layihənin əvvəlindən ötən müddət ərzində (avqust 2008 - dekabr 2009) layihə ilə əhatə olunmuş **918** nəfər zavallı insanlara **8844** manat məbləğində zəruri ərzaqla yardım edilmiş, təmənnasız olaraq 6 növ müxtəlif tibbi-sosial xidmətlər (qan təzyiqininraн ölçülməsi, xəstəyə iynənin vurulması, təmizlik işlərinin aparılması, imkan olan dərmanla kömək və s.) göstərilmişdir.

Cəmiyyətin rəhbərliyi tərəfindən bu humanitar layihənin əhatə dairəsinin gələcəkdə genişləndirilməsi nəzərdə tutulur.

Respublikada fəaliyyət göstərən müxtəlif xarici, yerli humanitar və özəl təşkilatlarla əməkdaşlıq barədə müxtəlif səviyyədə işlər aparılır.

Azərbaycan QAC ilə hesabat ilində səmərəli əməkdaşlıq edən İran İslam Respublikasının Qızıl Aypara Cəmiyyətinin Bakı şəhərində fəaliyyət göstərən klinikasının,«COUNTERPART» Beynəlxalq Humanitar Təşkilatın Azəırbaycandakı Nümayəndəliyinin və s.təşkilatların işini xüsusi qeyd etmək yerinə düşər.

Bu müddət ərzində İran İslam Respublikasının Qızıl Aypara Cəmiyyətinin Bakı şəhərində fəaliyyət göstərən klinikasında 402 nəfər aztəminatlı xəstənin təmənnasız tam tibbi müayinə keçməsi üçün köməklik göstərilmişdir. Təmənnasız göstərilmiş tibbi müayinənin dəyəri 22110 manat təşkil etmişdir.

Cəmiyyətin daim diqqətində olan zavallı insanların iştirakı ilə müxtəlif xeyriyyə tədbirləri və görüşlər təşkil olunmuşdur.

Hesabat dövründə Azərbaycan QAC-ın yerli bölmələri tərəfindən ümumilikdə 150-ə yaxın belə humanitar-xeyriyyə tədbirləri həyata keçirilmişdir. Bu tədbirlərdə yüzlərlə aztəminatlı zavallı insan, valideyn qayğısından məhrum olmuş uşaq iştirak etmiş, onlara müxtəlif yardımlar paylanmış, onlar üçün süfrələr açılmış, əyləncəli proqramlar təşkil edilmişdir.

**Nailiyyət:**

2009–cu ildə Humanitar fəaliyyətdə əvvəlki illərə nisbətən keyfiyyətcə irəliləyişə nali olunmuşdur. Hesabat ilində tənha qocalara, xroniki xəstələrə, aztəminatlı ailələrə və məcburi köçkünlərə **23798** nəfər zavallı insana **305864,13** manat məbləğində ərzaq, dərman, gigiyenik dəstlər, yataq dəstləri, paltar, məişət avadanlıqları, təmənnasız tibbi kartlarla və məktəbli ləvazimatları və s.ilə yardım göstərilmişdir.

Bu yardımlar müxtəlif mənbələrdən daxil olan vəsaitlər hesabına həyata keçirilmişdir:

- İanə qutularından, təmənnasız ayrılmış tibbi müayinə kartları, şəxsi vəsait və digər mənbələrdən daxil olan vəsait hesabına **1111** nəfərə **28837** manat məbləğində;
- BQX və QA Cəmiyyətləri Federasiyasının və digər daxilolmalar hesabına **1701** nəfər təbii fəlakətdən zərər çəkmiş insanlara, məcburu köçkünlərə, aztəminatlı ailələrə və s. **91845,13** manat məbləğində;
- QAC Rayon Bölmələrinin üzvlük haqqı və digər mənbələrdən daxil olan vəsaitlər hesabına **20986** nəfər zavallıya **185182** manat məbləğində humanitar yardımlar edilmişdir.

| **Humanitar yardımın mənbəyi** | **Humanitar yardımın növü** | **Əhalinin kateqoriyaları** | **Yardım göstərilən insanların sayı** | **Məbləğ (manat)** |
|---|---|---|---|---|
| Ianə qutuları təmənnasız tibbi kartlar və şəxsi ianələr hesabına | Ərzaq, paltar, müxtəlif humanitar tədbirlər və s. | Tənha qocalar, xroniki xəstələr, aztəminatlı ailələr, valideyn qayğısından məhrum olmuş uşaqlar | **1111** | **28837** |
| Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası və digər mənbələrdən daxil olan vəsaitlər və yardımlar hesabına | Məişət avadanlıqları, müxtəlif mebel, yataq dəsləri, gigiyenik dəstlər və s. | Fövqəladə hallar zamanı zərər çəkmiş insanlar, aztəminatlı ailələr və məcburi köçkünlər | **1701** | **91845,13** |
| QAC Rayon/Şəhər Bölmələrinin üzvlük | Ərzaq, dərman, məişət və sanitar | Tənha qocalar, xroniki xəstələr, aztəminatlı ailələr və | **20986** | **185182** |

| | | | | |
|---|---|---|---|---|
| haqqı və digər mənbədən daxil olan vəsaitlər hesabına | gigiyenik dəstlər | məcburi köçkünlər | | |
| | | **Cəmi:** | **23798** | **305864,13** |

**Problemlər:**

1. Humanitar Yardım məqsədi ilə lazım olan maliyyə vəsaitinin kifayət qədər olmaması.
2. Humanitar missiyanın daha keyfiyyətlə yerinə yetirilməsi üçün şöbənin nəqliyyat vasitəsinə ehtiyacı olması.

## FANDREYZİNQ

2009-cu il ərzində Fandreyzinq şöbəsi gəlir mənbələrinin artırılması məqsədi ilə ölkə daxili bir çox əlaqələr qurmuşdur. Şirkətlər, holdinqlər, təşkilatlarla müxtəlif istiqamətdə AZ.QAC-a məxsus layihələrin və Fandreyzinq siyasətinin həyata keçirilməsinə dair görüşlər keçirilmişdir.

Bir neçə layihə üçün daimi donorlarla əlaqələr möhkəmləndirilmişdir İanə qutularının sayı artırılıb 110-a çatdırılmışdır. Almalı marketlərinin yeni açılmış 5 mağazasına, NLT telekom satış mərkəzlərinə, Azza şirniyyat evlərinə, TİENS şirkətinin baş idarəsinə, Sevimli Dad süd və ət məhsullarının butun mağazalarına, Beutech gözəllik salonuna, Sea Vew plaza, Karamel kafeyə, Kosmoland uşaq əyləncə mərkəzinə bu il yeni ianə qutuları yerləşdirilmişdir. Nəinki paytaxt Bakıda, eləcə də Sumqayıt və Gəncə şəhərlərində Almalı marketlərində və ticarət mərkəzlərində də ianə qutuları quraşdırılıb. Qutulardan yığılan vəsait hesabına Gənclər komitəsinin, səhiyyə şöbəsinin, humanitar şöbənin layihələri, eləcə də Azərbaycan QAC-a müraciət edən köməyə ehtiyacı olan insanlara müxtəlif istiqamətdə yardımlar edilmişdir. “Danone” şirkəti ilə onlara məxsus yoqurt və içəcəklərin daimi ərzaq yardımı ilə bağlı aparılan görüşlər müsbət həll olunmuşdur. Eləcə də Tiens şirkəti Azərbaycan QAC-ın layihələrini daim dəstəkləyir, buna misal olaraq küçə uşaqları ilə bağlı sosial çarxın və Yeni il şənliyinin “Daun” sindromlu uşaqlara təşkilinin maliyyələşdirməsini qeyd edə bilərik. Müxtəlif gənc təşkilatlarla da əlaqə genişləndirilir. Məsələn, AGAT-ın ( Azərbaycan Gənclərinin Avropaya İnteqrasiyası Təşkilatı) “Dost” layihəsinə Azərbaycan Qızıl Aypara Cəmiyyyəti və Aqil M. Film prodüsser mərkəzi dəstək duraraq gözdən əlil yeniyetmənin gözəl səsə malik olduğunu ortaya çıxarıb və istedadını əks etdirən sosial yönlu qısa metrajlı sənədli filmin ərsəyə gətirilməsi ilə nəticələnmişdir. Fandreyzinq şöbəsinin Sənətim-Gələcəyim adlı layihəsinə Rotarakt klub adlı təşkilatla görüşü nəticəsində kimsəsiz gənclərin 6 ay müddətində sənətə yiyələnməsi üçün 5400 manat məbləğində yardım etmişdir.

Azərsun Holdinqlə əlaqələr daha da inkişaf etdirilmiş, bu layihəyə dəstək duraraq  Azərsun 2 gənci işlə təmin etmişdir və Qızıl Aypara Cəmiyyətinin humanitar yönlü layihələrini dəstəkləyərək il ərzində bir neçə dəfə  qida yardımı etmişdır. Fandreyzinq şöbəsinin        Sənətim-Gələcəyim layihəsinə İran Islam Respublikasının Azərbaycandakı səfirliyi dəstək duraraq   5   kimsəsiz yeniyetmənin müxtəlif peşələrə tədrisə göndəriblər. Ümumiyyətlə 30 000 manat büdcəsi olan bu layihə 2 ay ərzində uğurla həyata keçmişdir. Bu layihədə küçə uşaqlarının problemlərini əks etdirən Aqil M.Film produsser mərkəzinin çəkdiyi video filmin yayımı böyük rol oynamışdır.

Azərbaycanda yüksək peşəkarlıqları ilə seçilən bu mərkəzin təqdim etdiyi filmə görə 10 kimsəsiz yeniyetmə  bu il sənətə yiyələnir və bəziləri də daimi iş yerləri ilə təmin olunublar. Bu istiqamətdə    Aqil M. Film prodüsser mərkəzi Azərbaycan QAC ilə  Azərbaycanın sosial rifahı naminə daim əməkdaşlığı davam etdirəcəklərini bildirmişlər. Trans Qlobal şirkəti ilə də uğürlu danışıqlar nəicəsində Qızıl Aypara Cəmiyyətinin Silahlarla mübarizə şöbəsinin TOM layihəsinin (6000 Azn)  şirkət tərəfindən ödənildi. Yalnız şirkətlər və təşkilatlar deyil ölkəmizdə fəaliyyət göstərən beynəlxalq təşkilatlar və səfirliklərlə də əlaqələr qurulur, onları Qızıl Aypara Cəmiyyətinin layihələri ilə mütəmadi olaraq tanış edir və məlumat verilir

2009-cu il Fandreyzinq şöbəsinin  gördüyü işlər nəticəsində ianə qutularından gələn gəlir artırılmış, yeni şirkətlərlə əlaqələr qurulmuş, bəzi layihələr videofilm versiyası ilə işlənmiş və layihənin maliyyələşməsində özünü doğrultmuşdur. İanələr hesabına az təminatlı ailələrə, tənha yaşayan ahıllara, imkansız tələbələrə, müxtəlif xəstəlikdən əziyyət çəkən insanlara maddi yardım edilmişdir.

Fandreyzinq şöbəsi nəinki maddi, həmçinin Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Respublika ərazisində xüsusilə də müxtəlif qurumlar, şirkətlər, imkanlı şəxslər və s. arasında real, şəffaf humanitar fəaliyyətlə məşğul olan bir təşkilat kimi tanınmasında da əvəzolunmaz rol oynayır.

## MİQRASİYA

2009-cu ildə may ayının 5-də Azərbaycan Qızıl Aypara Cəmiyyətinin məsul işçiləri ilə Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı Missyiyasının Rəhbərliyi arasında iki tərəfli görüş keçrilmişdir. Görüşün əsas məqsədi Miqrasiya problemlərinin həlli istiqamətində Fəaliyyət göstərən hər iki təşkilatın bu sahə üzrə rəhbərlərinin tanışlığı və gələcək əməkdaşlıq üzrə müzakirələrin aparılması olmuşdur. Görüş zamanı ilk olaraq Azərbaycan Qızıl Aypara Cəmiyyətinin nümayəndələri Milli Cəmiyyətin uzun illər boyu və hal-hazırda da Miqrasiya məsələləri üzrə həyata keçirdiyi ənənəvi layihələrdən bəhs edildi Belə layihələrə qaçqın və məcburi köçkün soydaşlarımız üçün Azərbaycan Qızıl Aypara Cəmiyyəti, Beynəlxalq Qızıl Xaç/Qızıl Aypara Cəmiyyətləri

Fedarasiyası, Beynəlxalq Qızıl Xaç Komitəsinin müntəzəm olaraq həyata keçirdiyi düşərgə layihələri misal göstərildi

2009 cu il may ayının 6-da Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Miqrasiya şöbəsi tərəfindən Şuşanın işğalı ilə bağlı anım tədbiri keçirilmişdir. Tədbirə 9-12 yaşlı 55 uşaq 5 fəal könüllü Beynəlxalq Miqrasiya təşkilatının numayəndəsi Cəmiyyətin Miqrasiya şöbəsinin müdiri və digərləri iştirak etmişlər.Tədbirdə ilk olaraq Şuşanın erməni ekstremistləri tərəfindən işğalı anılıb. Uşaqlara mənəvi və psixoloji dəstək üçün ayparaçılar dənizkənarı Milli Parkda gəzinti və yeni təşkil olunmuş atraksionlarda iştirakını təşkil etmişlər. Gəzintidən sonra uşaqlar üçün Araz kafesində nahar sufrəsi təşkil olunmuşdur.Tədbirdə iştirak edən uşaqlar Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən kiarəyəyə götrülmüş xüsusi avtobusla gətirilmiş və mənzil başına çatdırılmışdır.

Azərbaycan Qızıl Aypara Cəmiyyəti hər il olduğu kimi bu ildə 1 iyun “Uşaqların Beynəlxalq Müdafiə Günü” münasibətilə silsilə tədbirlər həyata keçirir. Belə tədbirlər Cəmiyyətin daxili imkanları hesabına keçrilir və əsasən qaçqın və məcburi köçkün valideyn himayəsindən məhrum olmuş fiziki əqli qüsurlu uşaqlar üçün müxtəlif əyləncə idman və rəngarəng konsert proqramlarının təşkili ilə müşaiət olunur. Belə tədbirlər onların bir qədər öz problemlərini unudaraq uşaqlıq illərini daha sevincli yaşamasına ümidləndirir. Belə tədbirlərdən biri də 2009-cu il may ayının 25-də 1iyun “Uşaqların Beynəlxalq Müdafiyə Günü” münasibətilə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin miqrasiya şöbəsi tərəfindən Ağdam rayonu Quzanlı qəsəbəsində yerləşən məcburi köçkünlər üçün salınmış qəsəbənin 150 saylı orta məktəbində keçrilmişdir. Tədbirdə şagirdlərin iştirakı ilə futbol (oğlanlar )və volebol (qızlar ) yarışlarının keçrilməsi tədbiri daha maraqlı və həyacanlı etdi. Tədbirdə təşkilatçı qismində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin əməkdaşları və Cəmiyyətin Ağdam rayon bölməsinin əməkdaşları da iştirak etmişlər. Tədbirdə 100-dən artıq şagird və müəllim kollektivinin izlədiyi maraqlı idman yarışmasında 47 nəfər uşaq iştirak etmişdir.Yarışdan sonra qalib gələn komandalar Cəmiyyətin təqdim etdiyi kubok və hədiyyələrlə mükafatlandırılmışdır

19-20 fevral 2009-cu il tarixlərində Fransanın Strasburq şəhərində Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının Avropa üzrə fəaliyyət göstərən 44 Mlli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyəti Miqrasiya məsələlərinə dair beynəlxalq görüş keçirmişlər. Görüş Fransa Qızıl Xaç Cəmiyyəti və Avropa Şurası tərəfindən təşkil olunmuşdur. Avropa Şurasının qərargahında təşkil olunmuş beynəlxalq görüşün əsas məqsədi Beynəlxalq Qızıl Xaç/Q;z;l Aypara Cəmiyyətləri Federasiyasının növbəti 2009-2019-cu illər üçün miqrasiya üzrə həyata keçrirəcəyi əsas Strateji plan üçün işçi qrup səviyyəsində təkliflərin hazırlanması və ümumiyyətlə beynəlxalq maliyyə böhranından sonra Avropa ərazisində idarə olunması mümkün olmayan miqrantlarla bağlı Milli Qızıl xaç

və Qızıl Aypara Cəmiyyətlərinin dövlətlərlə birgə həyata keçrəcəyi yeni layihələrin müzakirə olunması idi.

## SİLAHLARA QARŞI MÜBARİZƏ

**Məqsəd:**

Respublikada silahların (mina, müharibənin partlayıcı qalıqları–MPQ) mülki əhali üçün yaratdığı problemlərin həllində aparıcı təşkilatlardan biri olan Azərbaycan Qızıl Aypara Cəmiyyətini (AzQAC) bu sahədə daha fəal, təkmilləşmiş, operativ bir qurum kimi tanıtmaq, Respublikada mina və partlamamış hərbi sürsatlardan zərər çəkmiş icmalarda “Mina Risklərinin Azaldılması” (cəbhəyanı kəndlərdə uşaqlar üçün “Təhlükəsiz Oyun Meydançaları”nı (TOM) quraşdırmaq), “Mina Üzrə Maarifləndirmə” işlərində ANAMA-ya (Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi Üzrə Milli Agentlik) dəstək olmaq, “Mina/Müharibənin Partlayıcı Qalıqları (MPQ) Hadisələri və Qurbanları, eləcə də Minadan Zərərçəkənlərin Ehtiyaclarına dair Məlumatların Toplanması” üzrə Milli Cəmiyyət və ANAMA arasında imzalanmış rəsmi əməkdaşlıq memorandumuna əsasən fəaliyyəti uğurla davam etdirmək, “Mina Qurbanlarına Yardım” strategiyası çərçivəsində mina və MPQ partlayışı nəticəsində ailə başçısını itirmiş ailələrin sosial vəziyyətinin qismən də olsa bərpa olunması istiqamətində layihələr reallaşdırmaq, icmalar və ANAMA arasında vasitəçi rol oynamaq, mina / MPQ-lərə qarşı fəaliyyət göstərən digər yerli və beynəlxalq, hökumət və qeyri-hökumət təşkilatları ilə sıx əməkdaşlıq etmək.

**Fəaliyyət:**

**Mina Risklərinin Azaldılması**

2009-cu ildə AzQAC “HOMS” (Heads Of Missions Spouses – ölkədə fəaliyyət göstərən xarici ölkə diplomatlarının xanımlarının humanitar birliyi) ilə tərəfdaşlıq çərçivəsində cəbhə yaxınlığında yerləşən, mina və MPQ problemləri ilə üzləşən 3 kənddə, Norveç Krallığının Azərbaycandakı Səfirliyi ilə əməkdaşlıq çərçivəsində isə 1 kənddə uşaqları mina və Partlamamış Hərbi Sürsatlarla (PHS) qarşılaşma risklərindən qorumaq məqsədilə “TOM” quraşdırılaraq icmaların istifadəsinə verilmişdir.

Layihənin əsas məqsədi uşaqları oynamaq üçün təhlükəsiz ərazilərdə oyun meydançaları ilə təmin edərək onların mina / MPQ ilə qarşılaşma risklərinin

azaldılmasıdır. 2009-cu ildə "TOM" layihəsi aşağıdakı cəbhəyanı kəndlərdə həyata keçirilmişdir:
Ağstafa rayonu – Köhnə Qışlaq kəndi;
Ağdam rayonu – Zəngişalı kəndi;
Tərtər rayonu – Əskipara, Qaradağlı kəndləri

**Mina Üzrə Maarifləndirmə**

2009-cu ildə AzQAC tərəfindən həyata keçirilmiş "TOM" layihəsində (3 rayondan 4 kənddə) hər bir oyun meydançasına minalar və PHS əleyhinə üzərində şüarlar yazılmış və rəsmlər çəkilmiş müxtəlif maarifləndirici lövhələr quraşdırılmışdır. Bu lövhələr vasitəsilə uşaqlar mina təhlükəsi barədə bilavasitə xəbərdar ola bilərlər. Bundan əlavə AzQAC ANAMA tərəfindən hazırlanmış mina üzrə maarifləndirici vəsaitləri (yüzlərlə bloknotlar, qələmlər, təqvimlər, kitablar, plakatlar və s.) özünün cəbhə bölgəsində fəaliyyət göstərən 10 Rayon Bölməsinin (Qazax, Ağstafa, Tovuz, Gədəbəy, Göygöl, Goranboy, Tərtər, Ağdam, Ağcabədi, Füzuli) könüllüləri vasitəsilə mina / MPQ təhlükəsi yüksək sayılan kəndlərdə yaymışdır.

**AzQAC və ANAMA arasında əməkdaşlıq**

2007-ci il dekabr ayında AzQAC və ANAMA arasında "Mina / MPQ Hadisələri və Qurbanları, eləcə də Minadan Zərərçəkmiş İnsanların Ehtiyacları Haqqında Məlumatların Toplanması" üzrə imzalanmış rəsmi Razılaşma Memorandumuna əsasən Milli Cəmiyyət 2009-cu il ərzində mina / MPQ partlaması hadisəsi və bu hadisələrdə mina qurbanlarına çevrilən bütün şəxslər haqda məlumatları toplayaraq ANAMAya təqdim etmişdir. 2009-cu ilin dekabr ayında AzQAC-ın və Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) təşkilatçılığı ilə Bakı şəhərində Milli Cəmiyyətin "Mina / MPQ Hadisələri və Qurbanları, eləcə də Minadan Zərərçəkmiş İnsanların Ehtiyacları Haqqında Məlumatların Toplanması" fəaliyyətinə cəlb olunmuş 10 rayon bölmə sədrinə ANAMA mütəxəssisləri tərəfindən 1 günlük təkmilləşdirmə kursu təşkil olunmuşdur.

2009-cu il ərzində AzQAC və ANAMA arasında 4 (rüblük olaraq) koordinasiya görüşü keçirilmişdir. Görüşlərdə yuxarıda göstərilən birgə fəaliyyətə və digər ümumi fəaliyyətlərə dair müzakirələr aparılmış və təklif olunmuşdur ki, 2010-cu ildə də tərəflər bu əməkdaşlığı davam etdirsinlər.

**Mina / MPQ partlayışı nəticəsində ailə başçısını itirmiş ailələrin hadisədən sonrakı sosial durumunun qismən də olsa bərpası**

2009-cu ildən başlayaraq AzQAC "Mina Partlayışı Zamanı Ailə Başçısını İtirmiş Ailələrə Sosial Dayaq" layihəsinə start vermişdir. Bu layihə çərçivəsində AzQAC BQXK-nin maliyyə dəstəyi ilə Tərtər, Qazax, Ağstafa və Tovuz rayonlarında belə ailələrlə tədqiqat işini reallaşdırmışdır. ANAMAnın AzQACa təqdim etdiyi bu kimi ailələrlə bağlı mövcud olan statistika üzrə aparılmış tədqiqatda real olaraq hazırda sosial durumu çox aşağı olan ailələr layihə üçün

qeydə alınmışdır. Tərtər rayonu üzrə 16 ailə, Qazax rayonu üzrə 6 ailə, Ağstafa rayonu üzrə 7 ailə və Tovuz rayonu üzrə 1 ehtiyaclı ailə qeydə alınmışdır. AzQAC tərəfindən bütün rayonlar üçün layihələr hazırlanmış və tərəfdaşlıq etmək üçün donorlarla müzakirələrə təqdim edilmişdir.

2009-cu ilin iyul ayında AzQAC ABŞ-nın Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri xanım Anne Derse ilə əməkdaşlıq edərək Tovuz rayonundan bu layihə üçün qeydiyyata alınmış yeganə ailəyə sosial dayaq olmaq məqsədilə 1 baş iribuynuzlu heyvan (inək) və bu heyvanın 1 illik müddətə yem tədarükünü təqdim etmişdir.

2009-cu il ərzində Tərtər rayonu üzrə mina və PHS partlaması nəticəsində zərər çəkmiş ailələrdən olan 13 nəfər gənc AzQAC Tərtər rayon bölməsinnin nəzdində fəaliyyət göstərən "Gənclər Mərkəzində" təmənnasız olaraq kompyuter biliklərinə yiyələnərək sertifikatlar əldə etmişlər.

## KİV-lə iş

AzQAC-ın mətbu orqanı olan "Yeni Təfəkkür" qəzeti və Milli Cəmiyyətin rəsmi veb-səhifəsi (www.redcrescent.az) vasitəsilə görülən işlər barədə geniş ictimaiyyət mütəmadi olaraq məlumatlandırılmışdır. Bundan əlavə olaraq AzQAC Silahlara Qarşı Mübarizə proqramı üzrə həyata keçirilən bütün mühüm tədbirləri Azərbaycanın rəsmi dövlət və özəl televiziya kanalları ilə işıqlandırmışdır. Bu proqram çərçivəsində fəaliyyətlərə cəlb olunmuş cəbhəyanı rayonların əsas mətbu orqanları da AzQAC-nin bu sahədə həyata keçirdiyi fəaliyyətlər haqda mütəmadi olaraq məqalələr dərc edirlər.

## Digər əməkdaşlıq

2009-cu ildə AzQAC Silahlara Qarşı Mübarizə proqramı çərçivəsində ən sıx əməkdaşlığı BQXK ilə həyata keçirmişdir. BQXK tərəfindən bu proqram texniki və maliyyə dəstəyi almışdır. AzQAC Silahlara Qarşı Mübarizə proqramının məsləhətçisi mütəmadi olaraq BQXKnin Azərbaycandakı Nümayəndəliyində bu sahəyə məsul olan müvafiq nümayəndələrlə görüşlər keçirmiş, müzakirələr etmişdir.

"TOM" layihəsi və digər fəaliyyətlərlə əlaqədar olaraq il ərzində AzQAC Silahlara Qarşı Mübarizə proqramının məsləhətçisi BQXK, BQXQACF (Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası), Almaniya Qızıl Xaç Cəmiyyəti, ANAMA, AzCBL (Minalar Əleyhinə Azərbaycan Kampaniyası İctimai Birliyi), HOMS, Norveç Krallığının Azərbaycandakı Səfirliyi, BAMF (Beynəlxalq Avrasiya Mətbuat Fondu), Trans Global LTD və s. təşkilatlarla görüşlər keçirmiş, layihələr ətrafında müzakirələr aparmış, seminar, treyninq və konfranslarda iştirak etmişdir.

## Beynəlxalq görüşlər

26-30 yanvar 2009-cu il tarixində Kambodjanın Siem Reap şəhərində Beynəlxalq Qızıl Xaç / Qızıl Aypara Hərəkatının (Hərəkat) "Silahlara Qarşı Mübarizə" üzrə növbəti beynəlxalq görüşü keçirilmişdir. Görüş Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) və Kambodja Qızıl Xaç Cəmiyyətinin təşəbbüsü və təşkilatçılığı ilə baş tutmuşdur. Görüşün əsas məqsədi Hərəkatın "Mina/PHS-lərə Qarşı Mübarizə" proqramı üzrə son 10 ildə həyata keçirdiyi fəaliyyətləri qiymətləndirmək, Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərinin bu sahədə təcrübə mübadiləsini təşkil etmək və novbəti 2009-2019-cu illər üçün Hərəkatın "Mina/PHS-lərə Qarşı Mübarizə" üzrə yeni strategiyasini işləyib hazırlamaq olmuşdur. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Silahlara Qarşı Mübarizə proqramının məsləhətçisi Bayram Vəliyev də görüşdə iştirak etmişdir.

2009-cu il noyabr ayının 18-dən 21-dək Keniyanın paytaxtı Nayrobi şəhərində Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının (Beynəlxalq Federasiya) XVII Baş Assambleyası, bunun ardından isə 23-25 noyabr 2009-cu il tarixlərində həmin şəhərdə Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının (Hərəkat) Nümayəndələr Şurasının görüşü keçirilmişdir. Görüşdə iştirak edən Azərbaycan Nümayəndə Heyətinin tərkibində AzQAC-nin Silahlara Qarşı Mübarizə proqramının məsləhətçisi Bayram Vəliyev də iştirak etmişdir. O Hərəkatın Nümayəndələr Şurasının görüşündə çıxış edərək növbəti 10 illik müddətə (2010-2020) yeni hazırlanmış Hərəkatın minalar, kassetli bombalar və Müharibənin Partlayıcı Qalıqları (MPQ), silahların mülki əhaliyə vurduğu zərərin azaldılması istiqamətində Strategiyasının yüksək səviyyədə hazırlandığını bildirmişdir.

## Axtarış xidməti

**Məqsəd:**

Bir-birindən ayrı düşmüş ailə üzvlərinin əzab və iztirablarını azaltmaq, psixoloji köməklik göstərmək, fövqəladə hallar zamanı və ondan sonra əldə edilən lazımı məlumatları ailə üzvləri arasında mübadilə etmək və həmçinin bir-birinə qovuşdurmaq məqsədi daşıyır.

**Fəaliyyət:**

- Mütəmadi olaraq ərizəçilərin qəbulu keçirilir:
- II Dünya müharibəsi zamanı itqin düşənlərin axtarışı
- Miqrasıya ilə bağlı axtarış
- Aliment ödəməyənlərin axtarışı
- Axtarış və sosial problemlərin həlli üçün hüquqi məsləhətlərin verilməsi

**<u>Kiv ilə əməkdaşlıq</u>**

2009-cu il ərzində **"Vışka" qəzetində** Axtarış Xidmətinin fəaliyyətini işıqlandıran 6 məqalə çap edilmişdir.

Sentyabr və noyabr aylarında Azərbaycan Televiziya və Radio verilişləri Qapalı Səhmdar Cəmiyyətinin radiosunu AX-nin fəaliyyəti və görülmüş işlər haqqında müsahibə verilmişdir.

Rusiyanın "ORT" telekanalında yayımlanan "Jdi menya" verilişi ilə əməkdaşlığımız telefon və elektron poçt vasitəsilə davam edir.

**<u>Dövlət strukturları ilə əməkdaşlıq</u>**

- AzQAC Axtarış Xidmətinin birgə əməkdaşlıq etdiyi əsas dövlət strukturları:

1. Daxili İşlər Nazirliyi
2. Dövlət Təhlükəsizlik Nazirliyi
3. Nazirlər Kabineti nəzdində Dövlət Arxiv İdarəsi
4. Bakı İcra Hakimiyyəti
5. Respublika Prokurorluğu
6. Hərbi Komissarlıq
7. Qaçqınlar üzrə Ali Komissarlıq
8. Qaçqın və Məcburi köçkünlər üzrə Dövlət Komitəsi
9. Ədliyyə Nazirliyi
10. Telefon-məlumat xidməti

**Daxili görüşlər**

İl ərzində Ətraflı Məlumatların Toplanması proqramının koordinatoru tərəfindən keçirilmiş görüşlərdə Axtarış Xidməti iştirak etmişdir.

ƏMT proqramına dair qaynar telefon xətti işini davam etdi. Bu il ərzində 143 telefon zəngi qəbul edilmişdir. Onlardan 52 zəng qeydə alınıb, qalanlarına isə məlumat verilmişdir. Zənglər daxil olduqca elektron bazası yeniləşir.

Bütün müraciət edənlərə qısa və konkret məlumatlar verilmiş və onların bütün sualları cavablandırılmışdır.

**Digər görüşlər.**

Təşkilatı şöbə ilə birgə regional mərkəz və rayon bölmələrinin işçiləri üçün təlimat kitabçasının hazırlanmasına dair hazırlıqlar aparılmışdır.

Oktyabr ayının 1-2 regional mərkəz və rayon bölmələri üçün işçi qrupu təşkil edilmişdir. Seminar zamanı iştirakçılar axtarış prosesi ilə yenidən tanış olmuş və əsas məqsəd axtarış prosesi haqqında təlim kitabçasının yeniləşməsi və axtarış zamanı

çıxan çətinliklərin aradan qaldırılması idi. Müzakirələr zamanı sorğu blanklarında bəzi dəyişiklər və əlavələr edilməsi qərara alınıb.

**Regional Mərkəz/Rayon Bölməsi**

İl ərzində Bakı, Sumqayıt, Lənkəran, Mingəçevir, Sabirabad, Gəncə, Naxçivan Regional Mərkəzlərinin koordinatorları ilə dəfələrlə görüşlər keçirilmiş, sorğu blankları paylanmışdır. Həmçinin bir çox rayon bölmələrinin sədrləri ilə axtarış işlərilə bağlı telefon əlaqəsi yaradılmış, məsləhətlər verilmişdir.

**2009-cu ildə Regional Mərkəzlərdən daxil olan sorğular**

**Sumqayıt RM – 1**

**Lənkəran RM – 1**

**Naxçivan RM – 1**

**Gəncə RM - 1**

**Statistik hesabat**

**2009-cu il ərzində daxil olmuş sorğular – 106**

**Açılmış işlər**

**Azərbaycan daxili – 64**

**Xaricdə - 41**

| | |
|---|---|
| Miqrasiya dair axtarış | 86 |
| II Dünya müharibəsi zamanı itgin düşənlərin axtarışı | 2 |
| II Dünya müharibəsinə dair sənədlərin axtarışı | 6 |
| Münaqişə nəticəsində itirilmiş sənədlərin axtarışı | 7 |
| Miqrasiya dair sənədlərin axtarışı (dəfn yeri) | 1 |
| Repressiya | 4 |
| **Cəmi:** | 106 |

| | |
|---|---|
| Ailə məktubu | 11 |

**2009-cu il ərzində bağlı işlər - 130**

| | | |
|---|---|---|
| Miqrasiya nəticəsində itgin düşənlərin axtarışı | 53 (mənfi) | 44 (müsbət) |
| II Dünya müharibəsi zamanı itgin düşənlərin axtarışı | 20 | 3 |
| II Dünya müharibəsinə dair sənədlərin axtarışı | | 1 |
| Münaqişə nəticəsində itirilmiş sənədlərin axtarışı | | 1 |
| Münaqişə nəticəsində itirilmiş sənədlərin axtarışı | 3 | 2 |
| Repressiya | 2 | |
| Sənədin təsdiqlənməsi (dəfn yeri) | | 1 |
| **Cəmi:** | 78 | 52 |

## ƏTRAFLI MƏLUMATLARIN TOPLANMASI LAYİHƏSİ

BQXK və Azərbaycan Qızıl Aypara Cəmiyyəti arasında bağlanmış razılaşmaya əsasən 2009-cu il ərzində də Azərbaycan Qızıl Aypara Cəmiyyətinin təlim keçmiş könüllüləri Yanvar, Fevral, Mart, İyun aylarında Bakı şəhəri, Abşeron Rayonu və Sumqayıt şəhərində Dağlıq Qarabaq münaqişəsi ilə bağlı itkin düşmüş şəxslərin ailələrində 373 itkin düşmüş şəxsə aid ətraflı məlumat toplanmış və BQXK-ya təhvil vermişlər.

Layihənin 1-ci mərhələsi 2009-cü ilin iyun ayında başa çatmışdır. Ümumilikdə birinci mərhələnin nəticəsi olaraq Bakı şəhəri, Abşeron Rayonu və Sumqayıt şəhərində yaşayan ailələrdə 1152 itkin düşmüş şəxsə aid ətraflı məlumat toplanmış və BQXK-ya təhvil vermişlər.

Layihənin 2-ci mərhələsi 2009-cü ilin fevral ayında başlanmışdır. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin 26 nəfər könüllüsünə Bərdə şəhərində 10 günlük təlim keçirilmişdir. Həmin könüllülər öz yaşadıqları rayonlarda məskünlaşan itkin düşmüş şəxslərin ailələrində olmuş və onlardan həmin itgin düşmüş şəxslərə aid ətraflı məlumatları toplamışlar.

2-ci mərhələ Ağdam, Füzuli, Tərtər, Beyləqan, Gədəbəy, Göygöl, Bərdə, Qazax, Ağstafa, Yevlax, Şəmkir, Tovuz, Samux, Ağcabədi, Daşkəsən və Gəncə, Mingəçevir şəhərlərində davam etdirilir.

İndiyədək 650 dən artıq sorğu anketi toplanılmış və BQXK ya təhvil verilmişdir.

2009-cü ilin dekabr ayının sonunadək 399 sorğu anketi daha toplanması planlaşdırılmışdır.

# MALİYYƏ

Mədaxil göstəricilərin təhlili göstərir ki, AzQAC üzrə ümumi mədaxilin azalması əsasən Respublika daxilində üzvlük haqqlarının yığılmasının azalması hesabına müşahidə olunur. Əgər 2008-ci ildə 650. 5 min manat yığılıbsa 2009-cu ilin ərzində 323.4 min manat yığılıb. Qeyd etməliyik ki, bu il Bakı təhsil və səhiyyə təşkilatlarında, neft şirkətində bəzi çətinliklər yaranıb və bu təşkilatların üzvlük haqqları ödənilməyib. Sözsüz ki, buna görə cəmiyyətimizin işində bəzi problemlər yaranıb. Bununla yanaşı, il ərzində ianə qutuların yerləşdirilməsi daha uğurlu nəticələr verib və müxtəlif yerlərdə yerləşdirilən 110 ədəd qutulardan 2009-cu il ərzində 16. 9 min manat həcmində vəsait toplanıb.

Hesabat dövründə əvvəlki ilə nisbətən Dövlət büdcəsi hesabına maliyyəşmənin həcmi artmıdır və əyər mədaxil vəsaitin 2008-ci ildə 33%-ni təşkil edibsə, bu il -39% təşkil edir.

“İnkişaf” programı çərçivəsində Ucarda “Quşçuluq”, Mingəçevir rayonunda EXO aparatı, İnternet və kompyuter kursları, Sumqayıtda internet klubu, Bakının Nərimanov rayonunda “Gözəllik salonu”, Nəsimi RB UZİ aparatı, İsmayıllıda “Diş kabineti” gəlir gətirmə təsərrüfatları fəaliyyət göstərir və əldə edilən gəlir bölmələrin müəyyən xərclərin ödəməsinə sərf olunur. Lakin qeyd etməliyik ki, gəlir gətirmə proqramı çox zəif inkişaf edir və bu sahədə işlər gücləndirilməlidir. İlk yardım kurslarından 1.9 min manat vəsait daxil olub. Şəxsi ianələr 8.7 min manat təşkil edib.

Rayon və şəhər bölmələri üzrə yığılan vəsait 2008-ci ildə 743.2 min manat, 2009-cu ildə 691.1 min manat təşkil edib.

Hesabat dövründə fəaliyyətləri zəif olan bölmələr: Qusar, Qubadlı, Cəlilabad, Xanlar.

Bildiyiniz kimi Beynəlxalq Federasiyasının Azərbaycan Nümayəndəliyindən, Beynəlxalq Qızıl Xaç Komitəsindən, xarici donorlardan daxil olunmuş vəsaitlər 100% həmin donorlarla razılaşdırılmış proqramların yerinə yetirilməsinə yönəldilmişdir. Bu programlar haqqında sizə ətraflı məlumat verildi. Büdcə vəsaiti təyinatı üzrə 9 saylı Dövlət Xəzinadarlıq tərəfindən əmək haqqı və əmək haqqı ilə bağlı hesablaşmalara yönəldilir.

| | **Manat** | **Faiz** |
|---|---|---|
| **Gəlirlər** | 1 546 990,12 | 100,0% |
| Beynəlxalq Federasiya, (DREF, A H1N1 pandemiya) | 172 333,87 | 11,1% |
| BQXK (BQX/QAH yayımı, Axtarış, ƏMT) | 84 151,19 | 5,4% |
| Norvec humanitar proyekti (Qan Donorluğu) | 8 852,66 | 0,6% |
| Büdcə vəsaiti | 600 000,00 | 38,8% |
| Üzvlük haqları | 323 361,00 | 20,9% |

| | | |
|---|---|---|
| Təhlükəsiz Oyun Meydançası proyekti (Almaniya QX) | 50 700,00 | 3,3% |
| Fandreyzinq (ianə qutularından), təşkilatlardan və ayrı - ayrı şəxslərdən | 268 010,80 | 17,3% |
| Sair gəlirlər | 39 580,60 | 2,6% |

**Gəlirlər**




| | Manat | Faiz |
|---|---|---|
| **Xərclər** | 1 509 411,57 | 100,0% |
| Beynəlxalq Federasiya | 172 333,87 | 11,4% |
| BQXK | 84 151,19 | 5,6% |
| Büdcə vəsaiti | 600 000,00 | 39,8% |
| Xarici donorlar | 59 326,00 | 3,9% |
| Az QAC hesabına olan humanitar aksiyalar (respublika üzrə) | 457 296,51 | 30,3% |
| Təsərrüfat xərcləri, büdcə ilə hesablaşmalar | 71 212,00 | 4,7% |
| Sair xərclər | 65 092,00 | 4,3% |

**Xərclər**


172 333,87
84 151,19
600 000,00
59 326,00
457 296,51
71 212,00
65 092,00
Beynəlxalq Federasiya
BQXK
Büdcə vəsaiti
Xarici donorlar
Az QAC hesabına olan humanitar aksiyalar (respublika üzrə)
Təsərrüfat xərcləri, büdcə ilə hesablaşmalar
Sair

# TARİX

**10 mart 1920-ci il**
Azərbaycan Qızıl Aypara Cəmiyyətinin yaranma günü

**1920-1921**
Sovet İttifaqı Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Liqasının üzvü

**20 noyabr 1994-cü il**
Azərbaycan Respublikası Milli Məclisinin "Azərbaycan Qızıl Aypara Cəmiyyətinin işinin yaxşılaşdırılması haqqında" qərarı ilə Milli Cəmiyyətin tanınması

**01 noyabr 1995-ci il**
Azərbaycan Qızıl Aypara Cəmiyyəti Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən rəsmən tanınmışdır

**26 noyabr 1995-ci il**
Azərbaycan Qızıl Aypara Cəmiyyəti Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının daimi, bərabər hüquqlu, həqiqi üzvü seçilmişdir

**Dekabr 2001-ci il**
Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti Novruz Aslanov Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının İdarəetmə Şurasında "Fövqəladə Hallara Hazırlıq və Yardım Komissiyası"na ekspert təyin olunmuşdur

**5 sentyabr 2003-cü il**
Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Qızıl Aypara Cəmiyyətinin işini yaxşılaşdırmaq haqqında" Sərəncamı

**31 yanvar 2004-cü il**
Azərbaycan Respublikasının Prezidenti, zati-aliləri, möhtərəm İlham Əliyev cənabları "Azərbaycan Qızıl Aypara Cəmiyyətinə dövlət qayğısının artırılması haqqında" Sərəncam imzalamışdır

**10 mart 2005-ci il**
Qızıl Ayparanın 85 illik yubileyi münasibətilə Respublika Prtezidenti cənab İlham Əliyevin sərəncamı ilə xüsusi xidmətlərinə görə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti Novruz Aslanov və digər 6 əməkdaşı "Tərəqqi" medalı ilə təltif olunmuşdur

**8 may 2005-ci il**
Azərbaycan Qızıl Aypara Cəmiyyətinin 3 tibb işçisi Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının ən yüksək "Florens Naytinqeyl" medalına layiq görülmüşdür

**8 may 2007-ci il**
"Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur

**8 may 2007-ci il**
"Qırmızı Xaç və Qırmızı Aypara emblemlərindən istifadə və onların müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

**22 may 2007-ci il**
"Qırmızı Xaç və Qırmızı Aypara emblemlərindən istifadə və onların müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

**22 may 2007-ci il**
"Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

**11 iyul 2007-ci il**
Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarına dəyişikliklər və əlavə edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**7 aprel 2008-ci il**
"Qızıl Aypara Gününün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

**21 iyul 2008-ci il**
Nazirlər Kabinetinin Sərəncamına əsasən ofis binasının Azərbaycan Qızıl Aypara Cəmiyyətinə əvəzsiz istifadəyə verilməsidir.